

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycan-İran münasibətlərində yeni səhifə

## Münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi nəzərdə tutulur



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
11 iyul
2024-cü il,
cümə axşamı
№ 121 (6707)
Qiyməti
60 qəpik



# Beş ölkənin bir dənizi...

# Xəzəri birlikdə xilas edək!

Bax səh. 3

# Sülh prosesində növbəti raund

Bax səh. 3



## Sağçılar fraksiyası formalaşır...

### Avropa Parlamentinin mövqeyində dəyişiklik olacaqmı?

Bax səh. 6

## E-Rəqabət Sistemi azad rəqabət mühitinin təmin edilməsində əhəmiyyətli rol oynayacaq

Bax səh. 2



## İlk dəfə...

### Parlament seçkiləri suveren Azərbaycanın bütün ərazilərində!

Bax səh. 4

## Qeyri-neft sektorunun qızıl sütunu...

"AzerGold" QSC milli dağ-mədən sənayesinin inkişafında yeni mərhələnin başlanğıcı olan filiz, qeyri-filiz yataq və digər mədənçıxarma üzrə geoloji kəşfiyyat proqramının icrasını sürətləndirməkdədir. Şirkət Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə icra olunan strateji inkişaf proqramına uyğun olaraq 15 min kv. km ərazinin 6 min kv.km-də tədqiqatlarını davam etdirməkdədir. Hiperspektral və aeroelektromaqnetik tədqiqatlar vasitəsilə icra olunan proqrama əsasən, Gəncə-Daşkəsən...

Bax səh. 4

## NATO Türkiyənin gözləntilərini doğrultmur

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO liderlərinin sammitində iştirak etmək üçün ABŞ-a səfər edib. Rəsmi dairələr səfərdən öncə Prezident Ərdoğanın Birləşmiş Ştatlara səfərinin gündəliyini açıqlamışdı. "NATO-nun yaranmasının 75-ci ildönümü ilə bağlı keçiriləcək sammitdə təşkilatın coğrafiyası üçün çağırışlar və risklər qarşısında alyansın çəkindirmə və müdafiə səyləri, həmçinin Ukraynadakı vəziyyət və Kiyevə dəstək kimi məsələlər ətrafında fikir mübadiləsi...

Bax səh. 5

## Qərbin "at gedişi"...

Cənubi Qafqazda "siyasi tozanaq" yaratmaq istəyən güclərin oyunları fiaskoya uğrayır. Bir müddət öncə, Ermənistana böyük-böyük vədlər verən Qərbin iç üzü açıldıqca İrəvan buraxdığı səhvləri anlamağa başlayıb. Bu haqda az sonra - indi isə, bölgənin yeni siyasi atlasında hələ də özünə yer tapa bilməyən rəsmi İrəvanın siyasi mövqeyinə, daha doğrusu, mövqesizliyinə nəzər salaq.

2022-ci ildən bu yana Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan sülh gündəliyi Cənubi Qafqaz ölkələri üçün gələcək perspektivin "bileti" sayılırdı. O baxımdan ki, Ermənistanın da Azərbaycan və Gürcüstanın mövcud əməkdaşlıq qrupuna əlavə edilməsi bölgə...

Bax səh. 5

## Zelenski tələb edir

2022-ci ilin fevral ayında başlayan Rusiya-Ukrayna müharibəsi region üçün ağır nəticələr verib. Sonu görünməyən müharibə indiyə qədər həm Rusiyaya, həm də Ukraynaya xeyli ziyan vurub. Belə ki, Ukraynada minlərlə mülki insan həyatını itirib, hərbçilər həlak olub, xeyli sayda infrastruktur dağıdılıb, milyonlarla insan qaçqın vəziyyətinə düşüb. Bu ölkənin ərazisinin 20 faizə yaxını hazırda Rusiya ordusunun nəzarətindədir. Müharibə Rusiya üçün də ağır nəticələrə səbəb olub. Bu günə qədər hər iki tərəfin döyüşlərdə, ümumilikdə, on minlərlə hərbçisinin həlak olduğu barədə məlumatlar var. İlk vaxtlarda Qərb Ukraynaya hərbi baxımdan ciddi dəstək versə də...

Bax səh. 7

## Stalinin bəyəndiyi antisovet əsər

1964-cü ildə Jan-Pol Sartr ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldü. Ancaq böyük yazıçı, dramaturq, filosof ali mükafatdan imtina elədi. İmtinanın bir səbəbi onun heç bir sosial təsisatdan, ictimai institutdan (hətta bu təsisat, yaxud institut nə qədər müsbət, şərəfli işlər görsə belə) asılı olmamaq istəyinə bağlıydısa, səbəblərdən biri də Nobel komitəsinin sosialist düşərgəsinə, o cümlədən sovet ədəbiyyatına soyuq, biganə münasibətiydi. Sartr təəssüflə söyləyirdi ki, sovet yazıçıları arasında dünyanın ən nüfuzlu ədəbi mükafatına nədənsə Şoloxov yox, Pasternak layiq...

Bax səh. 7



# Gürcüstan çətin seçim qarşısında

Bax səh. 6

# Azərbaycan-İran münasibətlərində yeni səhifə







## Münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi nəzərdə tutulur

Yeni inkişaf mərhələsini yaşayan Cənubi Qafqaz son illərdə mühüm siyasi-iqtisadi yeniliklərlə daha çox diqqət mərkəzinə düşür. Xüsusilə, postmüharibə dövründə Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlar regional əməkdaşlığın inkişafına böyük töhfələr verir. Dünya ölkələri ilə tərəfdaşlıq münasibətlərinin inkişafına hər zaman diqqət yetirən Azərbaycanın ortaya qoyduğu səylər mühüm nəticələrə yol açır - yaşadığımız coğrafiya sıx əməkdaşlıqlar, təhlükəsiz ticari münasibətlər, siyasi dialoqun inkişaf etdirilməsi kimi vacib çağırışların ünvanı kimi səciyyələndirilir. Çoxvektorlu xarici siyasət kursunda tərəfdaşlığı hər zaman prioritet seçmiş Azərbaycan qonşu ölkələrlə münasibətinə xüsusilə həssas yanaşır - bu baxımdan, ölkəmiz Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə ən yüksək səviyyədə siyasi-iqtisadi əlaqələrə malikdir.

## Azərbaycan-İran əlaqələri bundan sonra da genişlənəcək

İran İslam Respublikasının da Azərbaycanla əlaqələrinin inkişafı istiqamətində aparılan siyasət mühüm əhəmiyyət kəsb edir. Cənubi Qafqazın geostrateji əhəmiyyətini göz önünə gətirsək, burada siyasi dialoq mühitinin hər zaman aktuallığını qorumasının əsas şərt olduğunu deyə bilərik - Azərbaycan ilə İran arasında səmimi dialoq mühiti mövcuddur. Bu ilin mayında helikopter qəzası nəticəsində İran Prezidenti İbrahim Rəisinin vəfat etməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev "X" sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım edib, eyni zamanda, yaşanan faciə ilə əlaqədar İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneiyə başsağlığı verib. Mayın 21-də isə dövlətimizin başçısı İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, burada matəm kitabına ürək sözlərini yazıb. Prezident İlham Əliyev qeyd edib ki, bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib.

Mərhum Rəisinin vəfatının ardından İranda yeni prezident seçkiləri baş tutdu və Məsud Pezeşkian seçicilərin əksəriyyətinin səsini qazanaraq dövlət başçısı seçildi. Prezident İlham Əliyev bu münasibətlə Məsud Pezeşkianı təbrik etdi. İyulun 9-da isə Prezident İlham Əliyev İranın yeni dövlət başçısı Məsud Pezeşkiana zəng edib. Dövlətimizin başçısı Məsud Pezeşkianı İran İslam Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Məsud Pezeşkian göstərilən diqqətə və təbrikə, həmçinin Prezident seçilməsi münasibətilə dövlətimizin başçısının daha əvvəl göndərdiyi məktuba görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. İran Prezidenti gələcəkdə də ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini deyib.

Söhbət zamanı ortaq dini-mədəni köklər, dostluq və qardaşlığa əsaslanan Azərbaycan-İran əlaqələrinin bundan sonra da genişlənəcəyinə və müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişaf edəcəyinə əminlik ifadə olunub. Dövlət başçıları ölkələrimiz arasında indiyədək əldə edilmiş razılaşmaların həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Telefon söhbəti əsnasında Azərbaycan və İran prezidentləri qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər. Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkianı ölkəmizə səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən İran Prezidenti dövlətimizin başçısına minnətdarlığını bildirib və öz növbəsində, Azərbaycan Prezidentini İran İslam Respublikasına rəsmi səfərə dəvət edib. Dövlətimizin başçısı bu dəvəti məmnunluqla qəbul edib.

Vurğulayaq ki, yerləşdiyimiz coğrafiyanın əsas ölkələrindən sayılan İran ilə Azərbaycan arasında əlaqələrin səmimi inkişafı bütövlükdə region üçün olduqca əsaslı şərtdir - bu, xüsusilə bəzi anti-region maraqların Cənubi Qafqaza müdaxilə cəhdlərinin qarşısının alınmasında əsaslı rol oynayır. Eyni zamanda, İran ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə inkişafı həm də yeni yaranan iqtisadi-ticari situasiyanı daha da gücləndirir - Tehran ilə Bakı arasındakı dostluq münasibətlərinin dərinləşməsi regional inkişaf tempinə müsbət təsirlərini göstərir.

## Birgə nəqliyyat, daşımaçılıq imkanları...

Mühüm tarixi bağlılığı olan ölkələr müasir dövrdə əlaqələrini həm də yeni çağırışlar əsasında yaradır, inkişaf etdirir. Xüsusilə, iqtisadi platformada iki dövlət arasında əsaslı razılaşmalar mövcuddur, bir sıra yeni layihələr həyata keçirilib. Nəqliyyat sahəsində reallaşdırılan birgə layihələr əməkdaşlığa əsaslı nümunə sayıla bilər - hər iki ölkə Şimal-Cənub Dəhlizi marşrutu üzrə öz səylərini birləşdirməkdə qərarlıdır. Yaxın 10 il ərzində Asiya ilə Avropa arasındakı ticarət dövriyyəsinin həcminin bir neçə dəfə artması gözlənilir ki, burada da məhz Şimal-Cənub dəhlizi üzrə daşımalardan əldə olunacaq gəlirlər diqqəti cəlb edir - iki qitə arasında daşınacaq yüklərin 15 faizi bu dəhliz vasitəsilə həyata keçirilsə, Azərbaycanla İran külli miqdarda gəlir əldə etmək imkanı qazanacaqlar. Hazırda iki dost ölkə Şimal-Cənub Dəhlizinin funksionallığının artırılmasına böyük səy göstərirlər. Azərbaycan öz ərazisi üzrə marşrut istiqamətində böyük infrastruktur layihələri həyata keçirib. Bakı Beynəlxalq Ticarət limanının yükaşırma qabiliyyətinin artırılması ilə yanaşı, Ələt-Astara avtomobil yolu yenidən qurulub. İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsü tikilərək istifadəyə verilib, Astaraçay üzərində yeni avtomobil körpüsünün tikintisi artıq başa çatıb. Hazırda Azərbaycan Dövlət Dəmir Yolları QSC İranın Astara şəhərində yük terminalının tikintisini davam etdirir.

Eyni zamanda, Ağbənd istiqamətində yeni avtomobil körpüsü tikilir. Bu körpü tikiləndən sonra o da Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir hissəsi olacaq. Bu körpü təkcə Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirən körpü deyil, bu, beynəlxalq nəqliyyat dəhlizinin bir parçasıdır. Körpü Şimal-Cənub Dəhlizi ilə yanaşı, həm də, Şərq-Qərb Nəqliyyat Dəhlizlərinin bir hissəsi olacaq. Bütövlükdə, Ağbənd yolu regionları birləşdirən əsas nəqliyyat-tranzit bağlantılarından birinə çevriləcək. Buradan Türkiyəyə və İran vasitəsilə Fars körfəzinə yüklərin daşınması həyata keçiriləcək. Qarşıdan gələn dövrdə dəmir yolunun da çəkilməsi nəzərdə tutulur.

## Yeni mərhələdə çoxşaxəli münasibətlər...

Əlaqələrin inkişaf trayektoriyasından bəhs açılarkən "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının tikintisinə xüsusi yer ayrılmalıdır - bu il mayın 19-da mərhum İran prezidenti İbrahim Rəisinin də açılışında iştirak etdiyi hidroqovşaqlar ikitərəfli münasibətlərdə yeni bir səhifə açıb. Ölkələrimiz arasında xoş niyyətə əsaslanan münasibətlərin inkişafını təmin edən siyasətin töhfəsi olaraq uzun illərdir fəaliyyət göstərən Araz, Mil-Muğan su anbarları və Araz Su Elektrik Stansiyasından sonra Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihəsinin həyata keçirilməsi göstərir ki, Azərbaycan və İran öz aralarındakı sərhədi davamlı şəkildə səmərəli əməkdaşlıq imkanlarına uğura çevirən ölkələrdir. Vurğulayaq ki, "Xudafərin" və "Qız Qalası" layihələri hər iki ölkənin mənafeyi naminə inşa olunub. Bu hidroqovşaqlar bütövlükdə regionun su ehtiyatları və idarə edilməsi ilə bağlı yeni zəmin yaradacaq. Su tutumu 1,6 milyard kubmetr olan "Xudafərin" və 56,75 milyon kubmetr su tutumuna malik "Qız Qalası" hidroqovşaqları, həmçinin hər bir tərəf üçün ümumi qoyuluş gücü 140 MVt olan "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları paritet əsasda ölkələrimizin maraqlarına xidmət etməklə Azərbaycan-İran tərəfindən transsərhəd sulardan istifadənin örnəkləri olacaq. Enerji güclərinin də bərabər bölünməsi hər iki ölkəyə əlavə fayda verəcək. Layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması, illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, 80 milyon kubmetr qaza qənaət imkanı yaradacaq.

Beləliklə, İran ilə Azərbaycan arasında çoxşaxəli əlaqələrin inkişafı gələcək zaman üçün dinamizm və intensivlik səciyyəsi daşıyacaq. İki ölkə arasında siyasi-iqtisadi münasibətlərin yüksək səviyyədə olması bütövlükdə regionun inkişafına mühüm töhfələr vəd edir.

**P.İSMAYILOV**

# E- Rəqabət Sistemi azad rəqabət mühitinin təmin edilməsində əhəmiyyətli rol oynayacaq



Prezident İlham Əliyev Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında fərman imzalayıb. Sənədə əsasən, ölkəmizdə Elektron Rəqabət İnformasiya Sistemi (ERİS) yaradılacaq. Yeni sistem bazar iştirakçıları arasında rəqabət mühitinin təmin edilməsi və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində elektron platforma rolunu oynayacaq. Belə ki, E-Rəqabət Sistemi bazarda rəqabətlə bağlı qanunsuzluqlar meydana çıxdıqda, həmçinin istehlakçıların hüquqlarının pozulması halları baş verdikdə onların müraciətləri və vəsatətləri əsasında həmin hallarla bağlı məlumatları qəbul və emal edərək müvafiq tədbirlər görülməsində əlaqələndirici funksiya daşıyacaq. Baş verən pozuntuların araşdırılması üçün ERİS-in sahibi funksiyalarını icra edən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qəbul olan sənədlərin və ya məlumatların real vaxt rejimində digər dövlət orqanlarının sorğu əsasında elektron qaydada təqdim edəcək. Nəticədə rəqabətin və istehlakçı hüquqlarının pozulması ilə bağlı məlumatların göndərilməsi, cavablandırılması və görüləcək hansısa bir tədbirlərlə bağlı informasiyalar elektron sistemin köməyi ilə açıq olacaq ki, bu, istifadəçilər üçün əlçatanlığın təmin olunması deməkdir.

Elektron Rəqabət İnformasiya Sisteminin işə düşməsi sayəsində bazar iştirakçıları və vətəndaşların üzləşdikləri qanunsuzluqlarla bağlı daha asan və rahat formada öz şikayət və ya müraciətlərini təqdim etməsi mümkün olacaq ki, onlar əlavə fiziki və vaxt itkilərinə qənaət edəcəklər. Belə ki, vətəndaşlar hansısa mal alarkən onun qiymətinin süni şəkildə artımı, istehlakçı qaydalarının pozulması halları ilə üzləşdikdə Elektron Sistemə daxil olaraq öz şikayətlərini qeyd edəcəklər. Yaxud, hansısa sahibkar fəaliyyət göstərdiyi sahədə onunla bərabər çalışan digər sahibkarın rəqabət mühitini pozduğu, yaxud haqsız rəqabətə yol verdiyi halda öz irad və narazılığını ERİS vasitəsilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə ünvanlayacaq.

ERİS rəqabət və bazar institutları ilə bağlı digər məsələləri də özündə cəmləyən geniş e-sistem olduğundan bura rəqabətlə bağlı bilavasitə əlaqəsi olan digər dövlət orqanlarının da sistemə inteqrasiyası nəzərdə tutulub. Belə ki, rəqabət sahəsində təsərrüfat subyektlərinin bazar payı, haqsız rəqabət, iqtisadi təmərküzləşmələr, dövlət orqanları tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsi, təbii inhisarların fəaliyyətlərinin tənzimlənməsi, təsərrüfat subyektlərinin fəaliyyətinə nəzarət s. məsələlər bir neçə iqtisadi qurumun subardinasiyasında olduğundan Antiinhisar Xidməti daxil olan müraciətlərin araşdırılması üçün onların da məlumat və sorğularını nəzərə almalı olacaq. Bütün bu qurumların hər birinin təqdim edəcəyi sənədlər ERİS-ə inteqrasiya olunacaq. Nəticədə müvafiq qurumlar və biznes subyektləri Antiinhisar Xidmətindən əldə etmək istədiyi sənədləri, eləcə də biznes subyektinə aid məlumatları sistemdə öz əksini tapan data məlumat bazasından tapacaq.

Beləliklə, bazar iştirakçısının fəaliyyəti, istehlak etdiyi mal, göstərdiyi xidmətlər barədə şikayətçinin müraciəti elektron kargüzarlıqda vahid toplu sənədləri formasında emal olunaraq müvafiq tədbirlər görüləcək. Şikayətlərin necə və hansı səviyyədə cavablandırılması və tədbir görülməsi ilə bağlı məlumatlar e-sistemdə arxivləşdiriləcək və hansısa dövrdə bu məlumat mənbəyi hüquqi müstəvidə mübahisələr yarandığı halda istinad və dəlil kimi istifadə olunacaq. Nəticədə, Elektron Rəqabət İnformasiya Sistemi həm istehlakçıların şikayətlərini, həm də biznes subyektlərinin işini rahatlaşdıracaq və əlavə sənəd toplamaqdan onları azad edəcək.

E-Rəqabət Sistemi antiinhisar, haqsız rəqabət və istehlakçıların hüquqlarının qorunması sahələrində innovativ idarəetmənin təmin edilməsində mühüm rol oynayacaq. ERİS-in yaradılması ölkədə rəqabətlə bağlı hökumətin müəyyən etdiyi hədəf prinsiplərinin tərkib hissəsi hesab edilə bilər. Məlum olduğu kimi, 2024-cü il iyulun 1-dən qüvvəyə minən Rəqabət Məcəlləsinin əsas məramı azad bazar institutlarının fəaliyyətinin təmin edilməsi, rəqabətin məhdudlaşdırılması hallarına qarşı mübarizə, təsərrüfat subyektlərinin bazar payının müəyyən edilməsi, haqsız rəqabətə mane olan və iqtisadi təmərküzləşmələr yaradan halların aradan qaldırılması, rəqabət qanunvericiliyinə əməl edilməsi və təbii inhisarlar fəaliyyətlərinin tənzimlənməsindən ibarətdir. Məcəllə ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb etməklə, ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir, istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasını təşviq edir. Bu baxımdan ERİS də bu strategiyanın bir hissəsi kimi biznesin və vətəndaşların maraqlarının müdafiəsi ilə bağlı siyasətə xidmət etməklə, inhisarçılığa qarşı təsirli mübarizə mexanizmlərinin təşviqinə kömək edəcək.

Beləliklə, həm Rəqabət Məcəlləsinin qüvvəyə minməsi, həm də ERİS-in yaradılması ölkədə azad rəqabət mühitinin təmin edilməsində əhəmiyyətli rol oynayacaq.

**ELBRUS CƏFƏRLİ**

# Sülh prosesində növbəti raund

## XİN başçılarının 7-ci görüşü Vaşinqtonda...

**Xəbər verildiyi kimi, ABŞ-ın paytaxtı Vaşinqtonda NATO-nun 75-ci yubiley Zirvə görüşü keçirilir. 9-12 iyul aralığında baş tutacaq sammitdə bir sıra məsələlər, xüsusilə qlobal təhlükəsizliklə bağlı problemlər müzakirə edilir. Tədbirdə Azərbaycanı xarici işlər naziri Ceyhun Bayramov təmsil edir. Bu arada məlum olub ki, Vaşinqtonda Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan və ABŞ-ın Dövlət katibi Antoni Blinken arasında üçtərəfli görüş ilə bağlı razılaşma əldə edilib. Bu barədə Ermənistan Xarici İşlər Nazirliyi məlumat yayıb: "Əvvəlki mesajın davamı olaraq: Vaşinqtonda əldə olunmuş razılaşmaya əsasən, iyulun 10-da Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və ABŞ Dövlət katibi Antoni Blinkenin iştirakı ilə üçtərəfli görüş keçiriləcək", - deyə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan bildirib.**

### ABŞ sülhün vacibliyini dərk edir...

Xatırladaq ki, bu görüş XİN başçılarının sayca 7-ci, Vaşinqtonda isə 3-cü görüşləridir. Son olaraq nazirlər Qazaxıstanın Almatı şəhərində görüşüblər. ABŞ paytaxtındakı son görüş isə ötən ilin mayına təsadüf edir. Rəsmi Vaşinqtonun belə bir görüşün keçirilməsi ilə bağlı müraciəti isə son dövrlərdə nümayiş etdirdiyi mövqenin davamı kimi xarakterizə oluna bilər. Belə ki, bir müddət öncə, ABŞ Dövlət katibi Antoni Blinken Brukinqs İnstitutunda çıxışı zamanı Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması haqqında danışmışdı və bildirmişdi ki, iki ölkə arasında sülh sazişinə nail olmaq üçün müstəsna imkan yaranıb. O qeyd etmişdi ki, bu saziş onilliklərlə davam edən münaqişəyə son qoyacaq və iqtisadi əlaqələr, iqtisadi inkişaf, Şərqlə Qərb, Şimalla Cənub arasında əlaqələr baxımından böyük imkan yaradacaq. "Azərbaycan bu işdə çox böyük rola malikdir. Biz diplomatiya yolu ilə fəal şəkildə iş apararaq Azərbaycan və Ermənistanı sülh sazişinə yaxınlaşdırmağa çalışdıq. Biz bu sahədə Avropa İttifaqı ilə sıx əməkdaşlıq və koordinasiya həyata keçirmişik. Düşünürəm ki, bu, həqiqətən mümkündür. Mən təxminən bir həftə əvvəl bu barədə Azərbaycan Prezidenti İlham Əliyevlə danışdım. Düşünürəm ki, bu mümkündür və tam mənada Azərbaycanla Ermənistanın, həmçinin bütün regionun maraqlarına xidmət edir", - deyə A.Blinken vurğulamışdı.

İndiki halda yenidən vasitəçi rolunda çıxış etmək istəyi Vaşinqtonun prosesə olan marağının göstəricisidir. Bu isə anlaşılandır. Cənubi Qafqazın yeni dövrdə iqtisadi-siyasi proseslərdəki rolunu nəzərə alan Vaşinqton bölgədə sülhün əldə olunmasının prioritet olduğunu dərk edir - Azərbaycanın məsələdəki qətiyyəti və davamlılığı sülhün bölgə üçün hansı anlamı daşıdığını ortaya qoyur.

### Azərbaycanın sülh gündəliyi yüksək dəyərləndirilir...

ABŞ Dövlət katibinin bu təşəbbüsü Azərbaycanın sülh gündəliyinin qlobal səviyyədə yüksək dəyərləndirildiyini sübut edir. Qeyd edildiyi kimi, sülh imkanlarının müzakirəsi və əldə ediləcək nəticələr mühüm bir coğrafiyanın gələcək siyasi-iqtisadi inkişafının əsas amili sayılır. Xüsusilə, sülh prosesinin indiki məqamında - artıq nəticəyə yaxın olan dövrdə bu istiqamətdə müzakirələrin intensivləşdirilməsi nəzərə çarpır ki, bu da təsadüfi deyil. İnkar edilə bilməz ki, aylardır vasitəçisiz formatda davam edən ikitərəfli təmasların verdiyi nəticələr təqdir olunur - ötən ilin dekabrında bəyan edilmiş ikitərəfli açıqlama və orada əksini tapan müddəalar, bu il aprelin 19-da əldə edilmiş razılığa əsasən 4 kəndin qaytarılması, may ayında Almatıda keçirilən ikitərəfli görüş sülhə olan inamı artırır. Bu məqam onu təsdiqləyir ki, ikitərəfli təmaslar bölgədə əbədi və dayanıqlı sülhün bərqərar olmasını təmin edə bilər və bu istiqamətdə atılan addımlar yetərincə effektiv nəticələr vəd edir. Bunun üçün isə Azərbaycanın irəli sürdüyü şərtlər qəbul edilməlidir.



### Sülh üçün başlıca şərt

Sülh üçün zəmin və şərait mövcuddur - sadəcə, Ermənistanın qeyri-konstruktiv davranışları prosesi əsaslı nəticədən uzaq salıb. Azərbaycanın humanist və beynəlxalq hüquqa söykənən mövqeyinin qarşılığında rəsmi İrəvanın bir sıra məsələlərdə ləngiməsi prosesin effektivliyini azaldan amil kimi çıxış edir. Məsələn, 2022-ci ildə Azərbaycanın irəli sürdüyü 5 şərtdə göstərildiyi kimi, sülhün davamlı və əbədi xarakter daşıması təmin olunmalıdır. İlk növbədə Ermənistan özünün əsassız iddialarını unutmalı, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Sülh üçün ilkin və əsaslı şərt məhz budur - bunun üçün isə Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni, rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Azərbaycan isə haqlı olaraq Ermənistan Kosntitusiyasının dəyişikliyinə ehtiyac duyulduğunu önə çəkir - rəsmi İrəvan Konstitusiyasında dəyişiklik etməklə sülh üçün maraqlı olduğunu isbat edə bilər. Hər iki dövlətin rəsmiləri açıq şəkildə bildirirlər ki, artıq bütün detallar üzrə müzakirələr yekunlaşmaq mərhələsindədir. Ötən ilin sentyabrında baş tutan antiterror tədbirlərinin uğurlu nəticəsi sülh prosesi ilə bağlı mənzərəni daha da aydınlaşdırıb - artıq Ermənistanın manipulyasiya imkanları əlindən alınıb. İndiki məqamda yeganə əsas problem və başlıca şərt Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişinin imzalanması mümkünsüz görünür. Azərbaycanın bununla bağlı mövqeyi qətidir...

***P.SADAYOĞLU***

# Beş ölkənin bir dənizi...

## Xəzəri birlikdə xilas edək!

**Getdikcə daha da intensivləşən iqlim dəyişmələrinin ən ağır fəsadlarından biri də özünü dünya üzrə təbii su balansının pozulmasında büruzə verir. Qlobal istiləşmənin nəticəsi olaraq okeanlarda suyun səviyyəsi sürətlə artır ki, bu səbəbdən də bir sıra kiçik ada dövlətləri üçün mövcudluq, həyatda qalma məsələsi bütün dünyanın diqqət mərkəzinə gəlib. Digər regionlarda, o cümlədən də Azərbaycanda isə su azlığı müzakirə mövzusudur. Xüsusilə də son illərdə Xəzər sahillərinin geri çəkilməsi ciddi narahatlıq doğurur...**

### TDT-nin Şuşa Zirvə görüşündə çalınan həyəcan təbili

Xəzərdə suyun azalması və onun yaratdığı problemlər müxtəlif auditoriyalarda tez-tez müzakirə olunur. Bununla nağlı növbəti həyəcan təbili bugünlərdə Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə çalındı.

"Xəzər dənizi yox olmaq ərəfəsindədir. Onunla bağlı ekoloji problemlər diqqətdən kənarda qala bilməz". Bunu Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Şuşa Zirvə görüşündəki çıxışında deyib. Dost ölkənin dövlət başçısı fikirlərinə davam edərək vurğulayıb: "Biz Xəzər dənizinin logistik potensialının artırılmasının vacibliyini qeyd edik. Eyni zamanda onun ekoloji problemlərinə məhəl qoymamaq da qəbuledilməzdir. Dəniz yox olmaq ərəfəsindədir. Ən mühüm vəzifə onun ətraf mühitini, flora və faunasını qorumaqdır. Xəzərin xilasına yönəlmiş konkret həll yolları hazırlamaq lazımdır. Türk ölkələrinin alimləri arasında qarşılıqlı əlaqəni aktivləşdirməyin vaxtı çatıb".

Qazaxıstan Prezidentinin sözlərinə görə, bütövlükdə planetdə iqlimlə bağlı vəziyyət daha da mürəkkəbləşib. "Dünyanın müxtəlif yerlərində baş verən anormal istilər, meşə yanğınları, quraqlıq və daşqınlar bu tendensiyanın aydın şəkildə təsdiqidir. Biz Türk dünyası ilə iqlim məsələlərində əməkdaşlığı gücləndirməyə hazırıq. Bu il biz Azərbaycanda keçiriləcək COP29 iqlim konfransında fəal iştirak etməyi planlaşdırırıq", - deyə Tokayev əlavə edib.

Sərhədyanı ölkə olan Qazaxıstan Prezidentinin Şuşa Zirvə görüşündə Xəzərin problemini gündəmə gətirməsi təsadüfi deyil. Şübhə yoxdur ki, burada dost ölkənin dövlət başçısı Azərbaycanda noyabr ayında iqlim konfransının - COP29-un keçirilməsi amilini nəzərə alıb. Bu, miqyasına görə BMT-nin ən böyük tədbiridir, qlobal platformadır. Eyni zamanda, tədbirə ev sahibliyi edəcək Azərbaycan iqlim dəyişmələrinə çox həssas yanaşma sərgiləyir. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında çıxışlarında ölkəmizin qətiyyətli mövqeyini dəfələrlə ifadə edib. Artıq zaman gözləmir, müzakirələrdən praktiki müstəvidə zəruri tədbirlərin görülməsinə keçmək lazımdır. İqlim dəyişmələri bütün ölkələr üçün təhdidlər yaradan qlobal problemdir. Azərbaycan bu məsələdə də güclü beynəlxalq həmrəylik formalaşdırmaq, xüsusilə də maliyyə dəstəyinin artırılmasına nail olmaq istəyir. Dost Qazaxıstanın Prezidenti qlobal iqlim sammiti ərəfəsində Xəzərin probleminin beynəlxalq gündəliyə çıxarılmasına təşəbbüs göstərib.

Qazaxıstan Prezidentinin Xəzərin yoxolma təhlükəsindən bəhs etməsini şərtləndirən digər mühüm amil dost ölkənin Xəzərlə həmsərhəd ərazilərində həqiqətən acınacaqlı vəziyyət yaranması ilə bağlıdır. Son vaxtlarda Qazaxıstan mediasında yayılan məlumatları həyəcansız izləmək mümkün deyil. Ekoloq Azamat Sarsenbaev Aktau şəhər sakinlərinin 2016-cı ildən etibarən Xəzər dənizinin kəskin dayazlaşmasını hiss etdiklərini bildirib: "Hazırda bəzi yerlərdə su birdən-birə bir neçə metr çəkilib. Suyun azalması səbəbindən bütün adalar açılıb. Dəniz şəhərdən on metrlərlə, şimal tərəfdən isə kilometrlərlə uzaqlaşıb. Dəniz səviyyəsinin bir metrdən çox aşağı düşməsi Xəzər dənizinin sahil zolağının, xüsusən də Qazaxıstan sektorunun mövqeyinin dəyişməsinə səbəb olub".



### Azərbaycan sahillərində də vəziyyət ürəkaçan deyil

Azərbaycan da qlobal iqlim dəyişmələrindən əziyyət çəkən ölkələr sırasında yer alır. Bir qədər bundan əvvəl "Azərkosmos" "Yaşıl dünya naminə həmrəylik İli"nə həsr olunmuş konfransda qlobal iqlim dəyişmələrinin Azərbaycana təsirinə dair hazırladığı rəqəmsal iqlim platformasını ictimaiyyətə təqdim edib. "Azərkosmos"un peyk görüntülərinə dayanaraq apardığı hesablamalar göstərir ki, ölkədəki su anbarlarının çoxunda azalmalar baş verib. Məsələn, 2017-ci ildə ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarının güzgü səthinin sahəsi 48 min 259 hektar idisə, ötən il bu rəqəm 46 min 438 hektara enib. Deməli, 2 min hektara yaxın azalıb. "Azərkosmos"un hesablama apardığı Araz su anbarında bu azalma 1 min 800 hektar, Yenikənd su anbarında 74 hektar, Taxtaköprü su anbarında isə 286 hektar olub. Göstəriciləri açıqlanan beş su anbarından yalnız Şəmkir su anbarının güzgü səthinin sahəsi 2017-ci ildən bəri artıb və 5 min 650 hektardan 8 min 993 hektara yüksəlib. "Azərkosmos" peyk görüntüləri ilə ölkənin ən böyük çayı olan Kür çayının da monitorinq edib. Həmin görüntülərin təhlili göstərir ki, 2020-ci ildə Kürün Salyan şəhəri yaxınlığından keçən hissəsində çayın orta eni 101 metr idisə, 2023-cü ilin eyni dövründə bu göstərici 93 metrə enib. Bununla, üç il ərzində Kürün orta eni 8 metr azalıb. Müşahidə aparılan dövrdə Kürün eninin ən az olduğu dövr 2021-ci ilə təsadüf edib. Həmin vaxt Kür çayının Salyan şəhəri yaxınlığından keçən hissəsində orta en göstəricisi 68 metrə qədər geriləyib.

Mütəxəssislər Xəzərdə suyun artıb-azalmasının vaxtaşırı baş verən proses olduğunu bildirirlər. Alimlərin verdikləri məlumata əsasən, bir vaxtlar Böyük Qafqaz dağları dənizin altında idi. Hətta cənubda, respublikamızın ərazisində Balaxanı gölü əmələ gəlib. Daha bir fakt isə Xəzərin Şimal Buzlu okeanına birləşməsi olub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirilib ki, Xəzər dənizinin ən mühüm xüsusiyyəti səviyyəsinin mütəmadi olaraq qalxıb-enməsidir. Dənizin səviyyəsinin dəyişməsinə əsas səbəb onun su balansı elementlərinin dəyişməsidir. Su balansının mədaxilinin 80 faizini çay axınları təşkil edir ki, onun da təqribən 85 faizə qədəri Volqa çayının gətirdiyi suların hesabındadır. Tarixi dövr ərzində (son 3500 il) dənizin səviyyəsinin dəyişməsi 15 metr, son 200 ildə 3,5 metr təşkil edib. Xəzər dənizinin səviyyəsində həmçinin fəsli dəyişmələr (30-40 sm) müşahidə olunur. Nazirliyin məlumatında göstərilir ki, Xəzər dənizinin səviyyəsi 1977- ci ildə Baltik Sistemi ilə mənfi 29,00 metr olub ki, bu da son 500 ildə onun ən aşağı səviyyə kimi qeydə alınır. Xəzərin suyunun artması isə 1995-ci ildə ən yüksək səviyyəyə ( -26,50 m BS ) çatıb. Bu zaman dənizin səviyyəsi 1977-ci illə müqayisədə 2,50 metr yüksək olub. 2005-ci ildən Xəzər dənizinin səviyyəsində yenidən enmələr başlayıb. Bu proses mütəmadi olaraq dəyişir.

### Xəzəri təhlükə gözləyirmi?

Əlbəttə, sahəsi Avropanın ərazisinin təxminən 40 faizinə bərabər olan Xəzərin birdən-birə quruma ehtimalı azdır. Hazırda söhbət dənizdə suyun azalmasına təsir göstərən bəzi amillərin aradan qaldırılmasından, həmçinin yaranan problemlərin həllinə kömək göstərilməsindən, fəsadların daha da dərinləşməsinə yol verilməməsindən gedir. Xəzər beş ölkənin dənizidir. Söhbət sahilyanı ölkələrdən gedir.

Sahilyanı ölkələr səylərini birləşdirməklə Xəzərə birlikdə qayğı göstərməlidirlər və belə qayğı, diqqət göstərilir də. İndiyədək sahilyanı ölkələr arasında əməkdaşlıq üzrə bir sıra sənədlər imzalanıb. O cümlədən Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası 4 noyabr 2003-cü ildə Tehranda imzalanıb və respublikamızda 2006-cı il 4 aprel tarixli Qanun ilə təsdiqlənib. 12 avqust 2018-ci il tarixində Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya və bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər imzalanıb. Bununla da Xəzərin hüquqi status müəyyənləşib. İmzalanan sənədlərlə Xəzəryanı ölkələr dənizdə əməkdaşlıq və onun qorunması ilə bağlı öhdəliklər götürüblər.

***Mübariz FEYİZLİ***

# İlk dəfə...

## Parlament seçkiləri suveren Azərbaycanın bütün ərazilərində!

**Demokratik və şəffaf seçkilərin təşkili sözsüz ki, hər bir ölkədə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşmasından, təşəkkülündən xəbər verir. Elə buna görə də azad və ədalətli seçkiləri hüquqi dövlət quruculuğunun əsas elementi hesab edirlər. BMT Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin 21-ci maddəsində də seçki hüquqi ümumbəşəri sərvət, vətəndaş cəmiyyəti və hüquqi dövlətin əsas prinsipi kimi səciyyələndirilib.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır**

### Mühüm tarixi əhəmiyyətə malik sənəd...

1990-cı illərdə Azərbaycanda hüquqi dövləti qurmaq üçün ilk növbədə konstitusion rejim, mükəmməl hüquq sistemi, effektiv məhkəmə hakimiyyəti, hakimiyyətlər bölgüsü kimi prinsiplər yaradılmalı idi. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə Konstitusiyamız qəbul olundu. Həqiqətən də bu sənəd dünyada nadir konstitusiyalardandır ki, burada demokratik hüquqi dövlətin bütün prinsipləri öz əksini tapır. Bütün bunlar Azərbaycanın demokratik dəyərlərə sadiqliyinin göstəricisidir. Tarixi əhəmiyyətə malik bu mühüm sənəd ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir.

Ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində işlər uğurla davam etdirilir. Məlumdur ki, Prezident İlham Əliyev iyunun 28-də VI çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib.

Artıq respublikamızın bütün ərazisində seçkilərə hazırlıq işlərinə start verilib. İlk dəfə olaraq parlament seçkiləri respublikamızın bütün ərazisində baş tutacaq. Söz yox ki, bu ilin əvvəlində keçirilmiş növbədənkənar prezident seçkiləri də ölkəmizin bütün ərazisini əhatə etmişdi. Hətta Prezident İlham Əliyev öz ailə üzvləri ilə birlikdə Xankəndi şəhərindəki seçki məntəqəsində səs vermişdi. Bundan bir qədər sonra növbədənkənar parlament seçkilərinin də işğaldan azad edilmiş bütün ərazilərimizdə keçirilməsi bir daha "Qarabağ Azərbaycandır!" reallığını təsdiqləyir.





### Azad edilmiş ərazilərdə yeni məntəqələr...

Dünən növbədənkənar parlament seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasında (MSK) dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilib. Müşavirədə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Baş prokurorun birinci müavini Elçin Məmmədov, daxili işlər nazirinin müavini Oqtay Kərimov, ədliyyə nazirinin müavini Abiddin Hüseynov və digər rəsmi şəxslər iştirak edib.

MSK sədri Məzahir Pənahov bildirib ki, ölkəmizdə fevral ayında baş tutan Prezident seçkiləri suveren Azərbaycanın bütün ərazilərində keçirildiyinə görə, Zəfər seçkisi adlandırılmışdı: "Parlament seçkiləri də ilk dəfə suveren Azərbaycanın bütün ərazilərində keçiriləcək və olduqca vacib prosesdir. 125 seçki dairəsi üzrə 6 400-dən artıq məntəqədə seçkilərin keçirilməsi üçün şərait yaradırıq. Xüsusilə, azad olunmuş ərazilərdəki seçkilərdə də vətəndaşlar ilk dəfə səs verəcək".

### 34 məntəqə fəaliyyət göstərəcək...

M.Pənahov qeyd edib ki, azad olunmuş ərazilərdə seçki məntəqələrinin sayı artacaq: "Ötən gün orada 8 məntəqə yaratdıq. Beləliklə, azad edilmiş ərazilərdəki parlament seçkilərində 34 daimi seçki məntəqəsi fəaliyyət göstərəcək. Bu dəfə azad olunmuş ərazilərdə seçkilər daha geniş şəraitdə keçiriləcək. Həmin bölgədəki seçkilərə xüsusi fikir veririk".

Beləliklə, ölkəmiz müasir tarixində növbəti mühüm seçkiləri yüksək səviyyədə keçirməyə hazırlaşır. Hər zaman olduğu kimi, bu seçkilərin də şəffaf, demokratik və ədalətli keçirilməsi üçün zəruri imkan yaradılıb. Vətəndaşlar əmindir ki, 1 sentyabr seçkiləri yüksək standartlara uyğun keçiriləcək və səsvermə prosesinin yekunları seçici iradəsini əks etdirəcək. Dövlətin hər zaman olduğu kimi qətiyyətli mövqeyi də qarşıdakı parlament seçkilərinin ədalətli keçiriləcəyinə, xalqın iradəsini əks etdirəcəyinə və ölkədə demokratiyanın inkişafı prosesində mühüm addım atılacağına inamı daha da gücləndirir.

Odur ki, vətəndaşların hər biri sentyabr ayının 1-də baş tutacaq parlament seçkilərinin hüquqi dövlət quruculuğu prosesinə öz töhfəsini verəcəyinə inanır.

*Yeganə BAYRAMOVA*

# Qeyri-neft sektorunun qızıl sütunu...

## Azad olunmuş ərazilərdəki qızıl hasilatı ölkəmizin dividendlərini artıracaq

"AzerGold" QSC milli dağ-mədən sənayesinin inkişafında yeni mərhələnin başlangıcı olan filiz, qeyri-filiz yataq və digər mədənçıxarma üzrə geoloji kəşfiyyat proqramının icrasını sürətləndirməkdədir. Şirkət Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə icra olunan strateji inkişaf proqramına uyğun olaraq 15 min kv. km ərazinin 6 min kv.km-də tədqiqatlarını davam etdirməkdədir. Hiperspektral və aeroelektromaqnetik tədqiqatlar vasitəsilə icra olunan proqrama əsasən, Gəncə-Daşkəsən iqtisadi rayonunun cənub-qərb, Şərqi Zəngəzur iqtisadi rayonunun şimal və Naxçıvan Muxtar Respublikasının şimal-qərb hissəsində geoloji kəşfiyyat işləri aparılır. Yeni tədqiqat üsulları perspektivli sahələrin qısa vaxtda müəyyənləşdirilməsi, yüksək vəsait tələb edən buruqqazma işlərinə qənaət edilməsi, daha kiçik areallı əhatə edən, dəqiq koordinatlar üzrə aparılmasına imkan verir.

Yeni hasilat rayonlarında aparılan bu tədqiqat işləri yaxın vaxtlarda yeni qızıl mədənlərinin hasilata cəlb edilməsinə və Azərbaycanın qızıl ehtiyatlarının həcminin artmasına səbəb olacaq. Bu isə ölkəmizin strateji qızıl ehtiyatlarının beynəlxalq bazarlarda yerləşdirilməsi və əlverişli şərtlər əsasında gəlir əldə etməsi üçün də fürsətlər yaradır.

Qeyd edək ki, hazırda dünya bazarlarında qızılın qiyməti son illər ərzində rekord həddə bahalaşaraq sənaye tarixində ilk dəfə bir troya unsiyası 2450 dollara qədər yüksəlib. Qızılın spot qiyməti heç vaxt bu satış əmsalına yüksəlməyib, 2022-ci və 2023-cü ilin əvvəllərində artım müşahidə olunsa da, bu qiymətli metalın unsiyası 1800 dollardan yuxarı olmayıb. Ümumdünya Qızıl Şurasının məlumatına görə, dünyada investisiya aləti kimi qızıla tələbat 4 faiz artaraq 3,5 min tonu ötüb.

Baş verənlər qızıla həm investisiya kimi qlobal marağın artmasını, həm də bu sənaye sahəsinin investorlar üçün daha cəlbedici olmasını stimullaşdırır.

Qızıl investisiya aləti və yığım vasitəsi kimi digər maliyyə alətlərindən daha sərfəliliyini qoruyub saxlayır. Xüsusilə də son illərdə davamlı olaraq pul və digər qiymətli kağızların qızıla investisiya edilməsi də bunu təsdiqləyir. Qlobal səhmdarlar pul və blokçeynlər, qiymətli kağız və səhmlərdən daha çox qızıla investisiya qoymağı indi daha məqsədəuyğun sayır, eləcə də dünyanın iri şirkətləri, suveren fondları öz yığımlarını dollar və avro ilə nisbətdə qızıl portfelinə yerləşdirməyi faydalı hesab edirlər.

Göründüyü kimi, qlobal bazar konyukturası Azərbaycan üçün əlverişli mühiti formalaşdırır. Bu səbəbdən Azərbaycanın Dövlət Neft Fondundakı, həm Mərkəzi Bankdakı, həm də "Azərgold"un balansında olan qızıl ehtiyatlarının həcmi artırılır. Qızıl rezervlərinin saxlandığı əsas mənbələrdən biri olan Dövlət Neft Fondunun (DNF) investisiya portfelinin təxminən 15 faizi qızıl investisiyalarıdır. Eləcə də "Azergold" il ərzində 2500-3000 unsiya qızıl satışından əldə etdiyi dividendlərin həcmini əhəmiyyətli dərəcədə artırıb.

Bütün bunlar "Azergold"un yeni strateji inkişaf proqramı çərçivəsində apardığı tədqiqatların uğurla başa çatması fonunda yeni qızıl rezervlərinin formalaşmasını təmin etməklə ölkəmizin rezervlərini də möhkəmləndirəcək. Onu da qeyd edək ki, hazırda geoloji kəşfiyyatın davam etdirildiyi əsas mədənçıxarma zonalarından biri olan işğaldan azad edilmiş ərazilərdəki ehtiyatlar Azərbaycanın qızıl sənayesində yeni mərhələnin başlanmasına səbəb olacaq. Çünki işğaldan azad edilmiş ərazilərdə qızıl ehtiyatları kifayət qədər böyükdür. Hazırda azad edilmiş ərazilərdə başlanmış yeni kontraktların icrası qızılçıxarma sənayesində yeni mərhələnin başlanmasını ehtiva edir. Bu sahəyə ən son texnologiyaların gətirilməsi, müasir emal avadanlıqlarının cəlb olunması hasilatda intensiv artımlara yol aça bilər.



Hazırda Azərbaycan hökuməti Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdərə rayonlarındakı qızıl yataqlarının hasilatına xarici investorları cəlb etməkdədir. Qardaş Türkiyənin "Eti Bakır A.Ş" və "Artvin Maden A.Ş" şirkətləri Kəlbəcərin "Qaşqaçay", "Elbəydaş" və "Ağduzdağ" filiz yataqlarında hasilata başlamaqdadır. Eləcə də digər zəngin mənbələr olan "Söyüdlü", "Qızılbulaq", "Vejnəli", "Dəmirli" yataqlarının işlənməsi üçün xarici investorların təklifləri nəzərdən keçirilir. Bu isə azad ərazilərin böyük valyuta gətirəcək zonaya çevrilməsindən xəbər verir. Nəzərə alsaq ki, azad edilmiş ərazilərdə çalışan investorlar torpaq, mənfəət, gəlir və s. vergilərdən, eləcə də qızıl və gümüş məhsullarının satışı əlavə dəyər vergisindən azad olunubr, bu halda qızıl sənayesinə marağın daha da artacağı şəksizdir.

Xatırladaq ki, 2023-cü ildə Azərbaycanda 2 min 614 kiloqram qızıl hasil edilib. Bu rəqəmlər hazırkı şəraitdə qənaətbəxş hesab edilsə də, mövcud ehtiyatlar hasilatın ən azı 3-4 dəfə artmasını şərtləndirir. "Azergold"un inkişaf proqramın 2026-cı ilin sonunadək ilkin texniki-iqtisadi hesablamaların aparılması, yekunlaşdırılması nəzərdə tutulub. Tədqiqatların yekunu olaraq toplanmış geoloji məlumatlar yeni mədən layihələrinə yerli və xarici investorların cəlb edilməsinə imkan verəcək. Beləliklə, azad ərazilərdə başlanacaq yeni sənaye bumu Azərbaycanın qeyri-neft gözləntilərində strateji yer tutacaq qızıl dividendlərinin həcm və dəyərinin də artacağına dərin əminlik yaradır.

*ELBRUS*

# Turizmdə rəqabət artsa da, qiymətlər yüksək olaraq qalır

2024-cü ilin yanvar-may aylarında Azərbaycana gələn ərəb turistlərinin sayında kəskin artım qeydə alınıb. Əvvəlki 3 illik azalmadan sonra yenidən turizm sektorunda canlanma müşahidə edilməyə başlanılıb. Xüsusilə də ərəb regionu və körfəz dövlətlərindən Azərbaycana gələnlərin sayı daha çox artmaqdadır. Qeyd edilən dövrdə Azərbaycana dünyanın 179 ölkəsindən 965,6 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 35,4 faiz çox turist səfər edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ilk 5 ayda əvvəlki ilin yanvar-may ayları ilə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 1,5 dəfə artaraq 156,3 min nəfərə çatıb. Bu dövrdə Avropa İttifaqından gələn turistlərin sayında 31,1 faiz, MDB regionundan gələnlərin sayında isə 24 faiz artım qeydə alınıb.

Xarici turistlərin, xüsusilə də körfəz dövlətlərindən gələnlərinin sayının artması turizm mövsümünün başlanması və bu istiqamətdə təbliğat-təqdimat tədbirlərinin genişləndirilməsi ilə bağlıdır. Yeri gəlmişkən, ərəb və körfəz regionundan gələn turistlərin tələbatını nəzərə alaraq turizm obyektlərinə "halal hotel" sertifikatının verilməsi nəzərdə tutulur. "Halal hotel" konsepti İslam qanunlarına uyğun xidmət göstərən hotelləri əhatə edir və ziyarətçilərin İslam dininin tələblərinə uyğun qida, yaşayış və digər xidmətləri təmin etməyə hesablanıb. Halal turizm sektoru, xüsusilə ərəb və Asiya ölkələri üçün xarakterikdir və bir sıra spesifik xidmət çeşidləri nəzərdə tutulub. Belə ki, "halal" sertifikatı olan hotellərdə spirtli içkilər təqdim edilmir və içməyə də icazə verilmir. Eyni zamanda, otaqlarda namaz qılmaq üçün imkan yaradılır, hotelin ərazisində namaz qılmaq üçün ayrıca kiçik bir məscid fəaliyyət göstərə də bilər. Xüsusən də qidalarda halal məhsullara diqqət yetirilir və alınan məhsulların halallığına xüsusi önəm verilir, çimərliklər kişilər və qadınlar üçün ayrı olur. Ona görə də Azərbaycan ümumi turizm statistikasında qeyd edilən region ölkələrindən gələn turistlərin dini-mənəvi xüsusiyyətlərini nəzərə alaraq hotellərin bu sertifikatlarla təmin edilməsini vacib hesab edir. Ancaq bu, bütün hotellər üçün məcburi xarakter daşımır və sertifikatlaşdırma könüllü olacaq.

Turizmdə diqqətçəkən digər məqamlardan biri uzaq Asiyadan, xüsusilə də Çindən Azərbaycana axının sürətlənməsidir. Belə ki, cari ilin 5 ayında ötən ilin eyni dövrü ilə müqayisədə Çindən gələnlərin sayı 2,8 dəfə, Hindistandan 2,6 dəfə, Cənubi Koreyadan 2,2 dəfə, Filippindən gələnlərin sayı 1,8 dəfə artıb. İlk dəfə olaraq Çindən Azərbaycana səfər edən turistlərin sayı 10 min nəfərə çatıb. İlin birinci yarısında Çindən Azərbaycana gələn turistlərin sayı 16 mini ötüb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 35 faiz artım deməkdir. Azərbaycan və Çin arasında iqtisadi-mədəni əlaqələrin daha da artması və müxtəlif stimullaşdırıcı və güzəştli sənədlərin qüvvəyə minməsi, habelə Çin vətəndaşlarına birtərəfli qaydada 1 il müddətinə vizasız rejimin tətbiq edilməsi də turist axınında müstəsna rol oynayacaq.

Hazırda 5 aylıq göstərici ilin sonunda turistlərin sayının 2,5 milyon nəfərə çatacağına, hətta bu rəqəmi də ötəcəyinə dərin əminlik yaradır. Çünki COP29-la bağlı ilin sonuncu rübündə turizm sektorunda əlavə dalğalanmaların baş verəcəyi və turist axınının aylıq sayının noyabrda 3-4 dəfə çoxalacağı gözlənilir. Sözsüz ki, COP 29 ölkəmizin tanınmasında, eləcə də onun turizm potensialının dünyaya çatdırılmasında gözəl imkanlar açır və turizmin inkişafına da təkan verəcək, yeni əlavə fürsətlər açacaq. Azərbaycana noyabrda ən azı 70-80 min xarici qonağın gəlişi gözlənilir. Turizm agentlikləri artıq COP29-un tələblərinə uyğun olaraq xaricilərin hotellərə yerləşdirilməsi, istirahətlərinin təşkili, paytaxtımızla tanışlıq kimi məsələləri diqqətdə saxlamaq üçün öz infrastrukturlarını və xidmət fəaliyyətlərini indidən hazırlıq vəziyyətinə gətirib.



COP-29 təkcə qlobal iqlim sammiti deyil, həm də Azərbaycanın humanitar, mədəniyyət simasını nümayiş etdirən, dünyada humanizm məkanı olmasını təşviq edən platformadır. Ona görə də, COP29 ilində ölkəmizin mədəni zənginliyi fonunda gələn qonaqların Bakı şəhəri ilə yanaşı, bölgəmizin tarixi-mədəni abidələrini, görməli məkanlarını da ziyarət etməsinə stimul verəcək, nəticədə bu, turizm statistikasının daha da artmasına səbəb olacaq.

Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi isə turizmin inkişafında yeni qapıların açılması deməkdir. Artıq Şuşa, Xankəndi və Zəngilanda ən müasir hotellərin istifadəyə verilməsi, əlavə zəruri turizm infrastrukturlarının yaradılması istiqamətində işlərin davam etdirilməsi bu bölgənin ən münbit və əlverişli ekoturizm sənayesinin mərkəzinə çevrilməsinə güclü zəmin yaratmaqdadır. İstisna deyil ki, COP29 çərçivəsində ekoloji tədbirlərin təşviqi ilə bağlı xarici qonaqlarda əyani təsəvvür yaratmaq üçün Qarabağ və Şərqi Zəngəzura səfərlər təşkil olunacaq. Bu isə azad edilmiş ərazilərə səfər edən turistlərin bu bölgənin ekoturizm zənginliyini gördükdən sonra davamlı olaraq buranı özləri üçün daimi turizm zonasına çevirməsini şərtləndirəcək.

Bütün dünyada turizm enerji daşıyıcılarından və İT sektorundan sonra ən çox valyuta gətirən sektor hesab olunur. Azərbaycanda bu sektorda dinamikanın artması valyuta daxilolmaları üçün əlverişli perspektiv vəd edir. Qeyd edək ki, ölkəmizdə ən böyük turist səfəri pandemiyadan öncə, 2019-cu ildə qeydə alınıb və həmin il 3 milyona yaxın əcnəbi ölkəmizə səfər edib və turizm gəlirləri 2,7 milyard dollara yaxın olub.

Bütün bunlara rəğmən, turizmdə qiymətlərin yüksək olması bu sahəyə marağı müəyyən dərəcədə azaldır. Statistika onu göstərir ki, Azərbaycanda turizm paketinin qiymətləri bahalaşıb. Xüsusilə də 4 və 5 ulduzlu hotellərin qiymətlərində artım daha çox olub. Belə ki, beynəlxalq onlayn turizm platformaları olan "TripAdvisor", "Four Square", "Booking.com" bronalaşdırma portallarında yerləşdirilmiş qiymət cədvəlindən də aydın olur ki, cari ilin ilk aylarnda Azərbaycandakı 5 ulduzlu hotellərdə bir günlük orta qiymət 215,3 manat təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 46,5 faiz çoxdur. Yəni, cəmi bir il ərzində qiymətlər təxminən 102 manat bahalaşıb. Burada bir sıra əsaslı amillər var, ancaq süni qiymət artımının payı da ümumi qiymət əmsalının formalaşmasında kifayət qədər böyükdür.

Əslində, ölkəmizdə turizm sektorunda daha əlverişli və əlçatan qiymət cədvəli müəyyənləşdirmək mümkündür. Azərbaycan hökuməti xarici turistlərin gəlişini stimullaşdırmaq üçün asan viza rejimini təmin edib. Dövlət başçısının 2016-cı il 1 iyun tarixli "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" fərmanı ilə "ASAN Viza" sistemi yaradılıb. Sistem vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər elektron vizanı 3 addımla (müraciət et, ödəniş et və e-vizanı yüklə) və 3 iş günü ərzində əldə etmək imkanına malikdir. Həmçinin, turizm sektorunun inkişafı üçün dövlət müxtəlif optimallaşdırma tədbirləri həyata keçirib, müxtəlif iqtisadi alətlər tətbiq edib, təşviqedici investisiya və vergi siyasəti həyata keçirir. Vergi Məcəlləsində edilmiş yeni dəyişikliklərə əsasən, 2024-cü ildən turizm subyektlərinə (mehmanxana, hotel və sanatoriyalar) vergi təşviqlərinin verilməsi nəzərdə tutulub. Regional turizmi dəstəkləmək və biznes üzərindəki sabit vergi xərclərinin optimallaşdırılması təsbit olunub. Vergi Məcəlləsinin 16.3-cü maddəsinə müvafiq olaraq Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər şəhər və rayonlarında mehmanxana, hotel və sanatoriya fəaliyyətində istifadə edilən daşınmaz əmlaka görə əmlak vergisi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə 75 faiz azaldılıb.

Həmçinin, turizm sektorunda rəqəmsallaşmaya geniş yer verilməkdədir. Cari ildə müəyyən edilmiş turizm təşviqi planına əsasən, turizm sektorunun rəqəmsallaşdırılması planına uyğun olaraq, beynəlxalq rəqəmsal kampaniyalar keçiriləcək. Tədbirlər sxeminə əsasən, beynəlxalq "Make My Trip" veb-səhifəsində Azərbaycana aid açılış səhifəsinin yaradılması, "Facebook" və "Instagram" sosial kanallarında banerlərin yerləşdirilməsi planlaşdırılır. Həmçinin "Wechat social", "Weibo social" və "OTT" platformasında, eləcə də "Qyer.com" və "China Travel Group" veb-səhifəsində Azərbaycanın turizm destinasiyası kimi tanıdılması işləri həyata keçiriləcək.

Bütün bu yeni stimullar və güzəştlər, kampaniyalar turizm sektorunda xərclərin azalmasını təşviq edir və qiymətlərin ucuzlaşmasına imkan yaradır.

*ELBRUS CƏFƏRLİ*

# NATO Türkiyənin gözləntilərini doğrultmur

## Rəcəb Tayyib Ərdoğan: NATO terrorla mübarizə istiqamətində səylərini gücləndirməlidir



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO liderlərinin sammitində iştirak etmək üçün ABŞ-a səfər edib. Rəsmi dairələr səfərdən öncə Prezident Ərdoğanın Birləşmiş Ştatlara səfərinin gündəliyini açıqlamışdı. “NATO-nun yaranmasının 75-ci ildönümü ilə bağlı keçiriləcək sammitdə təşkilatın coğrafiyası üçün çağırışlar və risklər qarşısında alyansın çəkindirmə və müdafiə səyləri, həmçinin Ukraynadakı vəziyyət və Kiyevə dəstək kimi məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Sammitin gündəliyinə terrorizmlə mübarizə məsələləri də daxil ediləcək”, - deyə məlumatda qeyd olunurdu. Bundan başqa, sammit çərçivəsində Türkiyə liderinin dövlət və hökumət başçıları ilə bir sıra ikitərəfli görüşləri də nəzərdə tutulub. Rəcəb Tayyib Ərdoğanın ABŞ-a səfəri iyulun 11-də başa çatır.

### NATO müharibənin tərəfi olmamalıdır!

Yeri gəlmişkən, Ərdoğan səfər öncəsi Esenboğa hava limanında keçirdiyi mətbuat konfransında deyib ki, NATO terrorla mübarizə istiqamətində səylərini gücləndirməlidir. Onun sözlərinə, ABŞ-də keçirəcəyi görüşlərdə bu məsələni xüsusilə diqqətdə saxlayacaq. Türkiyənin lideri, həmçinin Ukraynada davam edən müharibə barədə də danışıb: “NATO müharibənin tərəfi olmamalıdır. Biz müharibənin ilk günündən etibarən ədalətli sülhün tərəfdarıyıq və bunun üçün çalışırıq”.

Prezident Ərdoğan NATO-nun Türkiyənin gözləntilərini doğrultmadığını da deyib. O bildirib ki, bu, bəzi məsələlərdə, o cümlədən Yaxın Şərqlə bağlı durumda özünü göstərir: “Biz bu istiqamətlərdə, müxtəlif səviyyələrdə müzakirələrimizi davam etdirəcəyik”.

### Orban: Prezident Ərdoğan bizim sülh missiyamızın mühüm tərəfdaşı, ortağıdır

Qeyd edək ki, NATO sammiti çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan alyansın 75 illik yubileyi münasibətilə keçirilən mərasimə qatılıb. O, həmçinin sammit çərçivəsində Macarıstanın Baş naziri Viktor Orbanla da görüşüb. Bu barədə Türkiyə Prezident Administrasiyasının Kommunikasiyalar İdarəsi xəbər yayıb. Qeyd olunub ki, liderlər ölkələr arasında ikitərəfli münasibətləri, Türkiyənin Aİ-yə daxil olmasını, həmçinin regional və qlobal problemləri müzakirə ediblər. Görüş zamanı Prezident Ərdoğan bildirib ki, Türkiyə tərəfi Rusiya-Ukrayna müharibəsinə və İsrailin Qəzza zolağına hücumlarına son qoymaq üçün sülh səylərini davam etdirir. Bu bölgələrdə sülhün bərqərar olması üçün beynəlxalq ictimaiyyət tərəfindən səylərin gücləndirilməsinin vacibliyi vurğulanıb. Türkiyə lideri onu da qeyd edib ki, Ankara Macarıstanın sədrliyi dövründə Türkiyənin Avropa İttifaqına daxil olması prosesinin intensivləşdirilməsinə və Aİ ilə əlaqələrin inkişafına dəstək ümid edir.

Yeri gəlmişkən, Macarıstanın Baş naziri görüşlə bağlı özünün sosial media hesablarında maraqlı paylaşım edib. O, Türkiyə Prezidenti ilə Vaşinqtondakı görüşünü əks etdirən foto paylaşıb və paylaşımın mətnində diqqətçəkən fikirlər yazıb. Viktor Orban yazıb ki, yola çıxdığı sülh missiyasında Ərdoğan onunla bərabərdir, missiyanın ortağıdır: “Prezident Ərdoğan bizim sülh missiyamızın mühüm tərəfdaşı, ortağıdır. Türkiyə Qara dəniz regionunun regional gücünü müəyyən edən və Rusiya-Ukrayna münaqişəsində döyüşən tərəflərə uğurla vasitəçilik edən yeganə oyunçudur”.

Onu da qeyd edək ki, Türkiyə parlamentinin spikeri Numan Kurtulmuş da hesab edir ki, NATO dəyişən yeni dünya nizamında öz funksiyalarını nəzərdən keçirməlidir. NATO PA-nın toplantısında iştirak edən Numan Kurtulmuş Vaşinqtonda jurnalistlərə müsahibəsində deyib: “NATO-nun mühüm müttəfiqlərindən biri olan Türkiyə alyansda üzvlüyünə davam edəcək. Ankara həm də NATO-ya üzv ölkələrlə ikitərəfli münasibətlərini möhkəmləndirəcək. Lakin biz hesab edirik ki, NATO da bu prosesdə öz yeni funksiyalarını nəzərdən keçirməlidir”.

### “Alyans sülhü bərqərar etmək üçün öz vəzifələrini yenidən nəzərdən keçirməlidir”

Spiker əlavə edib ki, NATO-nun ikinci ən böyük ordusuna malik olması ilə öyünən Türkiyə 70 ildən artıqdır ki, alyansın üzvüdür. O əlavə edib ki, qlobal münaqişə potensialı olan bəzi məsələlərin, xüsusən Rusiya-Ukrayna böhranının gündəmə gəlməsi NATO-nun təhlükəsizlik məsələlərində sadəcə əməkdaşlıq və həmrəylik təşkilatı olmaqdan savayı, həmçinin müəyyən addımlar atmalı olduğunu göstərir. Vaşinqtonda 23 parlament sədri də daxil olmaqla 32 NATO ölkəsi və Ukraynanın parlament liderlərini bir araya gətirən NATO toplantısında iştirak edən Numan Kurtulmuş vurğulayıb: “Şübhəsiz ki, bunlardan (funksiyalardan- red.) ən mühümü NATO-nun çəkindirmə və təhlükəsizlik perspektivinə malik olmasıdır, lakin bundan əlavə, onun həm də sülh missiyası olmalıdır və biz hesab edirik ki, alyans sülhü bərqərar etmək üçün öz vəzifələrini yenidən nəzərdən keçirməlidir”. Mövcud dövrün əhəmiyyətli təhlükə və imkanlar ehtiva etdiyini deyən Kurtulmuş birqütblü dünya nizamının dəyişdiyini, yeni çoxqütblü dünya sisteminin başladığını vurğulayıb.

ABŞ-la münasibətlərə toxunan spiker Türkiyənin problemlərini masa arxasında diplomatik şəkildə müzakirə etməyə çalışdığını bildirib. O əlavə edib: “Bu gün bir çox məsələlərdə ABŞ-la birgə işləmək imkanımız olsa da, bəzi məsələlərdə aramızda ciddi fikir ayrılığı var. Amma Türkiyə fikir ayrılıqlarını bir kənara qoyaraq necə birgə hərəkət edəcəyini və davranacağını həmsöhbətləri ilə bölüşür, problemləri həll etməyə çalışır”.

Türkiyə-ABŞ münasibətlərində son illərdə Vaşinqtonun Suriyanın şimalında terror qruplaşması YPG/PYD/PKK-ya verdiyi dəstək və Türkiyənin 2017-ci ildə Rusiyadan S-400 hava hücumundan müdafiə sistemi alması ilə bağlı fikir ayrılıqları səbəbindən problemlər yaranıb. Kurtulmuş bununla bağlı deyib: “Təəssüf ki, strateji tərəfdaşlığımıza və bir çox sahədə sıx əməkdaşlığa baxmayaraq, ABŞ PYD-yə maddi-texniki, kəşfiyyat və siyasi dəstək verməyə davam edir. Demək istərdim ki, əlaqələrimizi zəhərləyən ən mühüm amil budur”.

**N.BAYRAMLI**

# Qərbin “at gedişi”...

## İrəvanı öz oyunlarına alət edən qüvvələrin növbəti hədəfi

Cənubi Qafqazda “siyasi tozanaq” yaratmaq istəyən güclərin oyunları fiaskoya uğrayır. Bir müddət öncə, Ermənistana böyük-böyük vədlər verən Qərbin iç üzü açıldıqca İrəvan buraxdığı səhvləri anlamağa başlayıb. Bu haqda az sonra - indi isə, bölgənin yeni siyasi atlasında hələ də özünə yer tapa bilməyən rəsmi İrəvanın siyasi mövqeyinə, daha doğrusu, mövqesizliyinə nəzər salaq.

2022-ci ildən bu yana Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan sülh gündəliyi Cənubi Qafqaz ölkələri üçün gələcək perspektivin “bileti” sayılırdı. O baxımdan ki, Ermənistanın da Azərbaycan və Gürcüstanın mövcud əməkdaşlıq qrupuna əlavə edilməsi bölgə üçün yeni üfüqlər vəd edirdi. Bölgə, daha dəqiq desək, 30 ilə yaxın “ələ baxmağa” öyrənmiş Ermənistan artıq özünün yeni inkişaf mərhələsini yarada bilərdi. Azərbaycanın rəhbərliyi ilə başlanan bu proses nəticədə Ermənistana həm dövlətçilik, həm rifah, həm inkişaf, həm də həqiqi müstəqillik imkanı yaradırdı.

### Aİ Ermənistana quru “söz” verir...

Amma Ermənistan bu imkanlara arxa çevirdi - Fransanın, konket olaraq Makronun təzyiqi və təkidi ilə üzünü guya Qərbə “çevirən” Paşinyan komandası fərqli coğrafiyalarda dividend axtarmağa başladı. Təbii ki, bu addım həm siyasi, həm də iqtisadi cəhətdən səhv yol idi.

-Birincisi, heç bir xüsusi ixrac və ya istehsal gücü olmayan Ermənistanın yaşaması xarici faktorlardan asılıdır. Region dövlətləri ilə münasibətlərini kritik vəziyyətə çatdıran Ermənistan siyasi rəhbərliyi mədəd umduğu və “üzvü olacağını” sandığı Avropa İttifaqının kölgəsinə sığınaraq fərqli bir “yol ıızacağını” düşünürdü. Hətta Aİ-nin verdiyi “sözlər” Paşinyan və komandasının bəzi üzvləri üçün “şüara”, “devizə” çevrilmişdi - Aİ-nin beşinci, altıncı dərəcəli üzvləri ilə “görüşən” Ermənistan hakimiyyəti səsləndirilən gəlişi gözəl sözlərdən ağlını itirdi - bu ilin aprelində Avropa Komissiyası ilə baş tutan “toplantı” isə sonun başlanğıcı kimi tarixə yazıldı.

Bəli, bu toplantı bir tərəfdən Ermənistanın şirnikləndirilməsi və nəticədə Avropaya yönləndirilməsi üçün tələ idisə, digər tərəfdən, Ermənistan ictimaiyyətinin ayılması üçün vəsilə oldu. Bəhs açılan “tərəfdaşlıq” münasibətlərinin bütün konturları Ermənistan vətəndaşlarına tanış gəlirdi - bu fikirlər, bir zamanlar Gürcüstan üçün səsləndirilirdi. 2000-ci illərin ortalarında qonşu dövlətə ayaq açan Qərb “demokratik institutlar” qısa zamanda öz maraqlarını təmin etmək üçün zəmin yaratmağa çalışırdı - bunun üçün isə yenə də diplomatik ritorikadan istifadə olunur, “beynəlxalq hüquq” adı altında korporativ maraqlar önə çəkilir, dövlətin mənafeyi arxa plana keçirilirdi. Eyni situasiya Ermənistan üçün də keçərli oldu - bu dəfə də, real və konkret əməkdaşlıqdan deyil, Ermənistanı “siyasi poliqon” statusunda işlətmək mexanizmləri müzakirə predmetinə çevrildi. Məsələn, Aİ üzvü olacağına söz verilsə də ona “namizədliyə namizədlik” statusu belə tanınmadı. Avropaya sərbəst giriş-çıxışı təmin edən Şengen vizası məsələsi açıq qaldı. Nəticədə, Qərb özünün kəşfiyyatçı QHT-lərini Ermənistan üzərindən maliyyələşdirmək planlarına start verdi.

### Ermənistan aldandığını anlayır...

Paralel olaraq bölgədə yeni iqtisadi mənzərə yaranıb. Azərbaycanın rəhbərliyi ilə bölgənin gələcək inkişafının qlobal təzahürləri meydana çıxır. Çinin ölkəmizlə strateji münasibətlər qurmaq arzusundan çıxış etməsi, Şanxay Əməkdaşlıq Təşkilatının və Türk Dövlətləri Təşkilatının bölgənin gələcək perspektivindəki real və məzmunlu iştirakı Ermənistana etdiyi səhvləri bir-bir göstərir. Qərbə sığınmaq, Fransanın destruktiv planlarına alət olmaq, lazımsız silahlanma əvəzinə Ermənistan sülh gündəliyini inkişaf etdirmiş olsaydı, bu gün fərqli maraqların aləti sayılmaz, özünün yeni inkişaf trayektoriyasını yaradardı. Ən azından regional əməkdaşlıq platformalarının tərkib hissəsi olmağı bacarardı. İndiki halda həm bölgəsəl layihələrdən kənarda qalma təhlükəsi yaşamaqdadır, həm də Qərbin nazı ilə oynamaq məcburiyyətindədir. Bu mənada, diqqəti cəlb edən məqamlardan biri Ermənistanın son günlərdə yavaş-yavaş yenidən köhnə orbitinə qayıtması prosesinə start verməsidir. Artıq Ermənistan mediasında Qərbin onları aldatması, Gürcüstan nümunəsi, Avropanın öz problemlərinin içində itib-batması, Türkiyə və Azərbaycanla münasibətlərin normallaşmasının onlara qazandıracağı dividendlərlə bağlı materiallar “göz oxşayır”. Amma bu dəfə problem başqa bir tərəfdədir...

### Yeni “Troya atları”...

Səslənən fikirlər heç də sadəcə iddia deyil - Ermənistanın bütün mənalarda “təcrübə labarotoriyası” kimi istifadə edilməsi faktlarla ortadadır. Qarşılığında isə 4 il ərzində cəmisi 270 milyon avro məbləğində qrant ayrılacaq - həmin qrantların hansı QHT-lərə ayrılacağı isə indidən bəllidir. Həmin təşkilatlar Ermənistanın içində Qərbin emissarlığını həyata keçirəcək.

Beləliklə, Aİ-yə yaxınlaşmaq, Qərbin çətiri altına girmək həvəsi qarşılığında lazımi effekti vermədi - xüsusilə, Paşinyanın gözlədiyi “səs-küy” yaranmadı. Onlar bir həqiqəti görürdülər, amma etiraf etməkdən çəkinirdilər. İstər Aİ-nin strukturları və üzv dövlətləri, istərsə ABŞ, istərsə də Ermənistanın siyasi hakimiyyəti dərk edirdi ki, regional həqiqətlər, regional reallıqlar məhz Azərbaycanın planlaşdırdığı strategiya və trayektoriya üzrə inkişaf edir. Yeni mərhələdə Ermənistan da daxil olmaqla Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya ticari xəttini aktuallaşdıran səbəblər və situasiyanın formalaşması birbaşa Azərbaycanla bağlıdır. Ölkəmizin 2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal antiterror tədbirlərində əldə etdiyi qələbə, ardından isə beynəlxalq aləmin iqtisadi maraqlarını bölgədə uzlaşdırması ən əsas amil kimi çıxış edir. Yəni, bu məsələdə Ermənistanın hər hansı bir xüsusi və ya diqqətçəkici rolu yoxdur, ola da bilməz. Sadəcə, hər zaman olduğu kimi bu dəfə də “siyasi alətə” çevrilən Ermənistan fərqli maraqların “dəyənəyi”nə çevrilmək arzusuna düşmüşdü. Halbuki Azərbaycanın təklif etdiyi sülh və normallaşma prosesi İrəvana hər şeydən öncə siyasi-iqtisadi müstəqillik qazandırmaq, öz maraqları çərçivəsində qərarlar vermək iqtidarı qazandırmaq üçün fürsət idi...

### 5 aprel görüşünün gizli şifrəsi...

Bəli, Azərbaycanın gücü və qüdrəti Qərbin ona öz iddiaları ilə yaxınlaşmasına imkan yaratmır. Bakı aparıcı aktor kimi bölgədə formalaşan siyasi situasiyanı özü müəyyənləşdirir. Bu isə Qərbin maraqları və planları ilə uzlaşmır - onlar, bölgəyə təsir mexanizmini mütləq şəkildə hansısa region ölkəsi üzərindən həyata keçirməlidir. Əgər illər öncə bu proses Gürcüstan vasitəsilə reallaşırdısa, artıq tədricən Tbilisi özünün maraqlarını qorumaq üçün açıq dəmarşa bəyan edir. Məsələn, bir neçə ay öncə böyük səs-küyə və qalmaqala səbəb olan “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbulu Aİ-nin Cənubi Qafqazda aldığı ən böyük zərbələrdən sayıla bilərdi. Qərbin “Troya atları” ard-arda ifşa ediləcək, onların xarici mənafeyə xidmət etməsi qanunun araşdırılacaqdı. Bu isə Aİ üçün sözün əsl mənasında Cənubi Qafqazın itirilməsi demək idi. Təbii ki, bu qanunun hazırlanmasından əvvəlcədən xəbərdar olan Avropanın kəşfiyyat strukturları növbəti “hədəf” kimi özlərinə həm də məcburi şəkildə Ermənistanı müəyyənləşdirmişdilər. 5 aprel görüşünün əsas gizli şifrəsi məhz burada açılır...

Amma bu görüşdən cəmisi 3 ay sonra bütün detallar çılpaqlığı ilə üzə çıxır. Bəlli olur ki, nə Avropa, nə də digər dairələr İrəvana “istədiyini” vermək gücündə deyil. Aprelin ortalarında Azərbaycanla delimitasiya və demarkasiya prosesinin ilkin mərhələsinin həyata keçməsi isə Ermənistanın həqiqətləri dərk etdiyini göstərirdi - sülh prosesinə konar müdaxilə və ya hər hansısa bir təzyiq mümkün deyil. Ermənistan bu və ya digər şəkildə Azərbaycanın irəli sürdüyü şərtləri qəbul etməli, Konstitusiyasını dəyişməli, bölgənin təhlükəsizlik arxitekturasının gücləndirilməsi üçün bütün əsassız və terrora hədəflənmiş iddialarından əl çəkməlidir. Beləliklə, yeni mərhələdə Ermənistan dərk edir ki, Avropa İttifaqından ona “haray” yoxdur...



### Ermənilər İrandakı seçkilərin nəticələrindən narahatdırlar

Ermənistan həm də bölgədə yaranan yeni siyasi situasiyadan narahatdır. Müstəqil xarici siyasət kursuna malik olan Azərbaycan bölgədə dostluq və əməkdaşlıq mühiti formalaşdırıb. Qonşuluq münasibətlərində mühüm detallar önə çəkilməkdədir. İstər Cənubi Qafqaz, istərsə də Xəzər akvatoriyası üzrə qonşu dövlətlər arasında əlaqələr günü-gündən genişlənməkdədir. Mərkəzi Asiya ölkələrinin Cənubi Qafqaza olan marağı və iqtisadi imkanlarının təqdim edilməsi prosesi Azərbaycanın xətti ilə təmin edilir. Xüsusilə, cənub qonşumuzla münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyur. Təsadüfi deyil ki, İranda keçirilən son prezident seçkilərinin nəticələri Ermənistanda olduqca geniş müzakirələrə səbəb olub. Hətta sosial şəbəkələrin erməni seqmentində İranın yeni prezidenti Məsud Pezeşkianın Azərbaycan əsilli olması xüsusi vurğulanıb. Erməni ictimaiyyəti Azərbaycan Prezidentinin İranın yeni dövlət başçısına həm təbrik məktubu ünvanlamasını, həm də telefonla danışmasını ikitərəfli əlaqələrdə yeni zəmin kimi dəyərləndirir. Bu baxımdan, artıq cəmiyyət Paşinyan komandasının tutduğu birtərəfli yolun uğursuz olduğunu açıq şəkildə dərk edir. Avropa və ya Qərb dairələrinə sığınmaqdansa, qonşuluq münasibətlərinin inkişafının daha prioritet olmasının vacibliyi önə sürülür...

### Qərb məngəsindən çıxa bilmir

Artıq Qərb Ermənistanı rahat buraxmaq niyyətində deyil. Xüsusilə, Gürcüstanın özü üçün yeni yol təyin etməsindən sonra Aİ Tbilisi ilə inteqrasiya prosesini dayandırıb. Paralel olaraq Gürcüstan Müdafiə Nazirliyinə 30 milyon avro ayrılması da dayandırılıb. Bu isə o deməkdir ki, Ermənistanın Qərbin bölgədəki əlaltısı statusundan xilas olması çətinləşir.

Qərb Gürcüstanla hərbi əməkdaşlığını da arxa plana keçirir - ABŞ Gürcüstanla birgə keçirilməli olan “Noble Partner” hərbi təlimlərini qeyri-müəyyən müddətə təxirə salıb. Pentaqonun saytında yerləşdirilən bu məlumatda bildirilir ki, qərar rəsmi Tiflisin ABŞ-ni Rusiya ilə münasibətləri pozmaqda ittiham etməsi ilə əsaslandırılıb. Qeyd edək ki, “Noble Partner” hərbi manevrləri iyulun 25-dən avqustun 6-dək təşkil olunmalı idi.

Başqa diqqətçəkən məqam isə... İyulun 15-dən 24-dək Ermənistanda ABŞ və Ermənistan hərbçilərinin iştirakı ilə “Eagle Partner” (“Qartal tərəfdaşlığı”) hərbi təlimlərinin keçiriləcəyi ilə bağlı məlumatdır. Təlimlərdə Ermənistan silahlı qüvvələrinin sülhməramlı briqadası, ABŞ ordusunun Avropa və Afrikadakı hərbi qulluqçuları və Kanzas Milli Qvardiyası iştirak edəcək. Bildirilib ki, təlimin keçirilməsində məqsəd beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələrin koordinasiya səviyyəsinin yüksəldilməsi, idarəetmə və taktiki rabitə sahəsində təcrübə mübadiləsinin aparılması, döyüş hazırlığının artırılmasıdır.

Göründüyü kimi, Qərb artıq bütün vasitələrlə Ermənistanı öz caynağından buraxmaq niyyətində olmadığını ortaya qoyur. Xüsusilə, maliyyə asılılığı (lobbi qruplarının İrəvana göndərdiyi pullar nəzərdə tutulur), ABŞ-ın Ermənistana etdiyi bəzi “jestlər” (məsələn “907-ci düzəliş” xarakterli) İrəvanın bu çəmbərdən xilası olmasını çətinləşdirir. Amma fakt odur ki, artıq İrəvan peşmanlıq yaşamağa başlayıb...

**P.İSMAYILOV**

# Sağçılar fraksiyası formalaşır...

## Avropa Parlamentinin mövqeyində dəyişiklik olacaqmı?

Avropa Parlamentinə keçirilən son seçkilərdə sağçı qüvvələrin qələbə qazanması Avropa İttifaqında siyasi proseslərə ciddi təsir göstərdi. Nəticələr bir sıra ölkələr üçün gözlənilməz olub. Belə ki, Fransa prezidenti Makronun partiyası Avropa Parlamentinə seçkilərdə üstünlük əldə edə bilmədi. Bu ölkədə ultrasağçı “Milli Birlik” partiyası qələbə qazanıb. Almaniyada mühafizəkar Xristian Demokrat İttifaqı/Xristian Sosial Birlik bloku birinci yerdə qərarlaşıb. Federal kansler Olaf Şoltsun partiyası ultrasağçı Almaniya Naminə Alternativ (AfD) partiyasından sonra üçüncü yerdə qərarlaşıb. Polşada Baş nazir Donald Tuskun Vətəndaş Koalisiyası qalib gəlib. İkinci yerdə Anjey Dudanın “Qanun və ədalət” partiyası qərarlaşıb. Avstriyada da ultrasağçı Azadlıq Partiyası qalib gəlib.

İtaliyada da vəziyyət dəyişib - Baş nazir Giorgi Melonun “İtaliya Qardaşları” partiyası əvvəlki ümumavropa seçki kampaniyası ilə müqayisədə dörd dəfədən çox səs toplayıb. Əgər 2019-cu ildə cəmi 6,44 faiz səs almışdısa, bu dəfə partiya 28,59 faizlə seçkilərə liderlik edib. Beləliklə sağ qüvvələrin ən böyük uğurları ən böyük Avropa ölkələrini əhatə edib - Fransa, İtaliya və Almaniyanın sağ mərkəzçi qüvvələrinin sayı Avropa Parlamentindəki fraksiyalar üzrə 13 yer artıb.

“Politico” nəşrinin bugünlərdə yaydığı məlumata görə, Fransanın “Milli Birlik” sağçı partiyasından olan deputatlar Avropa Parlamentində (AP) Macarıstanın Baş naziri Viktor Orbanın iştirakı ilə yaradılan “Avropa Vətənpərvərləri” sağçı qüvvələr alyansına qoşulacaqlar. Bildirilib ki, “Milli Birlik”dən olan qrup ilə birlikdə yeni sağçı partiyalar alyansı AP-də üçüncü böyük siyasi qüvvəyə çevriləcək. “Milli Birlik” parlament fraksiyasının rəhbəri Marin Le Penin nümayəndə heyətindən 30 deputat, hələ ki, sağçı “Kimlik və Demokratiya” fraksiyasının tərkib hissəsidir. Onların “Avropa Vətənpərvərləri”nə qoşulması Fransada növbədənkənar seçkilərin ikinci turunda məğlubiyyətdən sonra sarsılan “Milli Birliyin” özünün mövqeyini gücləndirəcək.

Bu seçkilər həm də ona görə xüsusi anlam daşıyırdı ki, BREXİT-dən sonrakı ilk Avroparlament seçkisi idi. Xatırladaq ki, Fransanın qatı sağçı “Milli Birlik” partiyası Avropa Parlamentinə keçirilən seçkilərdə 31,8 faiz səs toplayıb. Ümumiyyətlə, bir çox ekspertlər hesab edirlər ki, yeni tərkibli Avropa Parlamenti öz sələfinin siyasi kursunu davam etdirəcək. Yeni formalaşmış tərkibdə fərqli lobbilərin nümayəndələrinin təsirləri də açıq şəkildə hiss oluna bilər. Yəni müxtəlif məsələlərə yanaşmada qurumun qeyri-obyektiv sənədlər qəbul etməsi istisna deyil. Ən azı Azərbaycana qarşı indiyədək mövcud olan münasibət bunu deməyə əsas verir.



Nəzərə alsaq ki, Fransanın “Milli Birlik” sağçı partiyasından olan deputatlar Avropa Parlamentində Macarıstanın Baş naziri Viktor Orbanın iştirakı ilə yaradılan “Avropa Vətənpərvərləri” sağçı qüvvələr alyansına qoşulacaq, bu amil qurumun Azərbaycana qarşı qərəzli mövqeyini müsbətə doğru dəyişə bilərmi? Çünki Macarıstanın Baş naziri Viktor Orban kifayət qədər obyektiv şəxsdir və Azərbaycanla çox yaxşı münasibətləri var.

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq Ramiz Alıyev bildirib ki, Avropa Parlamenti hər zaman ölkəmizə qarşı qərəz nümayiş etdirib və təşkilat dəfələrlə Azərbaycanla bağlı obyektivlikdən uzaq qətnamələr qəbul edib. Lakin təşkilatda Ermənistanın 30 illik işğalçılıq siyasəti ilə bağlı bir dəfə olsun hansısa sənəd qəbul olunmayıb. Əksinə, iki il öncə Ermənistanın baş naziri Avropa Parlamentinə dəvət olundu və “təntənə” ilə qarşılandı. Onun sözlərinə görə, Avropa Parlamenti həmin dövrdə erməni lobbisinin təsiri ilə ölkəmizə qarşı demokratiya və insan haqları ilə əlaqədar həqiqətdən uzaq sənədlər qəbul edirdi: “Bunun da səbəbi aydın idi. Çünki məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın işğalçılıq siyasətindən yayındırmaq idi. Müstəqillik dövrümüzdə təşkilat dəfələrlə bu tipli sənədlər qəbul edib. Yəni, Avropa Parlamenti təcavüzkarın vəkili və ruporu qismində özünü təsdiqləyib. Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra isə bu qurum Ermənistandan “məzlum” obrazı yaratmaqla məşğuldur. Nə qədər paradoksal olsa da, Avropa Parlamenti Azərbaycanı “işğalçı” kimi təqdim etməyə çalışır. Təşkilatın qətnamələrində Ermənistana və Qarabağ separatçılarına “sonsuz məhəbbət” öz əksini tapır”.

Politoloq hesab edir ki, bütün bunlar bu təşkilatın demokratik dəyərlərdən, obyektivlikdən və beynəlxalq hüquqdan tamamilə uzaq olduğunu göstərir, həmçinin bölgədə gedən proseslərdə işğalçıya dəstək verilməsinə xidmət edir. Maraqlı olan hal budur ki, Avropa məkanının bir sıra iqtisadi və təhlükəsizlik yönümlü təşkilat və institutları Azərbaycanla enerji təminatı sahəsinə əməkdaşlıq etdiyi halda, Avropa İttifaqı Brüssel sülh gündəliyi çərçivəsində ölkəmizin mövqeyini dəstəklədiyi bir zamanda, bunun əksinə olaraq AP tərəfindən belə qərəzli mövqe nümayiş etdirilir. Əslində, bu mövqeyi ilə Avropa Parlamenti erməni lobbisinin əlində alətə çevrildiyini çoxdan sübut edib.

“Fransanın radikal sağçı “Milli Birlik” partiyasının Macarıstanın Baş naziri Viktor Orbanın iştirakı ilə yaradılan “Avropa Vətənpərvərləri” sağçı qüvvələr alyansına qoşulmasına gəlincə, düşünürəm ki, bu amil bütövlükdə Avropa Parlamentinin ümumi mövqeyinə təsir etməyəcək. Çünki say baxımından alyansın üzvləri səsvermə prosesi zamanı üstünlüyə malik deyil. Digər tərəfdən, Fransanın “Milli Birlik” partiyasının lideri Le Penin qatı ermənipərəst olması hamımıza məlumdur. Doğrudur, Viktor Orban Azərbaycanın dostudur və onun rəhbərlik etdiyi partiyanın üzvləri Avropa Parlamentində ölkəmizə qarşı məsələlərdə etiraz səslərini ucaldacaqlar. Onların alyansına qoşulan müxtəlif partiyaların nümayəndələri də böhtan xarakterli sənədlərə səs verməyə bilərlər. Yəni, sözügedən məsələ Azərbaycana qarşı çıxan avroparlamentarilərin sayının azalmasına səbəb ola bilər. Bu, özlüyündə müsbət hadisədir. Digər tərəfdən, Macarıstanın hakim partiyasının Avropa Parlamentində təmsil olunan üzvləri və onların tərəfdaşları Azərbaycanın maraqlarının qorunması baxımından müxtəlif layihələr təklif edə və müzakirəyə çıxara bilərlər”,- deyə R.Alıyev vurğulayıb.

**Nardar BAYRAMLI**

# Gürcüstan çətin seçim qarşısında

**Qonşu Gürcüstanla Avropa İttifaqı (Aİ) arasında münasibətlər pik həddədək gərginləşib. Əslində, yaxın keçmişədək Tbilisi ilə Brüsselin əlaqələri yüksək səviyyədə idi, müxtəlif istiqamətlərdə əməkdaşlıq davamlı olaraq genişlənirdi. Aİ özünü Gürcüstanın əsl canıyananı, himayədarı kimi təqdim edirdi, hətta Cənubi Qafqazda yeganə olaraq bu ölkənin vətəndaşları üçün vizasız gediş-gəliş rejiminin tətbiqinə başlanılmışdı. Anonsu edilən əməkdaşlıq layihələri Gürcüstanın bir Avropa dövləti kimi inkişafına perspektivlər açacaqdı. Ancaq indi bütün bunlar barədə keçmiş zamanda danışmaq lazım gəlir. Ötən hər gün Aİ ilə Gürcüstan arasında bağların qırılmasına dair yeni xəbərlər alınır. Nə baş verir? Rəsmi Tbilisi ilə Brüssel körpüləri niyə yandırılır?**

## Hər şey bir qanundan başladı

Avropa İttifaqı ilə Gürcüstanın münasibətlərinin indiki ziddiyyətlər mərhələsinə keçməsi qonşu ölkənin strateji seçim məsələsində milli maraqlarını önə çəkməsi ilə bağlıdır. Hər şey cari ilin may ayında Gürcüstan parlamentində “Xarici təsirin şəffaflığı haqqında “ qanunun qəbul edilməsindən başladı. Kollektiv Qərb və müxalifət, o cümlədən də prezident Salome Zurabişvili parlamentə hakim “Gürcü arzusu” partiyası tərərfindən təqdim olunan bu qanun layihəsinə qarşı çıxırdılar. Hakim koalisiya isə israrlı yanaşma sərgiləməklə qanun layihəsinin qəbul edilməsinə nail oldu.

Bəs Avropa İttifaqında və ölkə daxilində böyük etirazlar doğuran qanunun qəbulunda israrlı yanaşma sərgiləməyə rəsmi Tbilisini nə vadar edib? Hakim dairələr öz mövqelərini Gürcüstanın milli maraqlarının qorunmasının zəruriliyi ilə əlaqələndirirlər. Kiçik, beş milyonluq Gürcüstanda Qərb qrantları alan qeyri-hökumət təşkilatlarının sayı əhəmiyyətli dərəcədə artaraq 10 mini ötüb. Təbii ki, Qərbdən maliyyələşən subyektlər fəaliyyətlərini bəlli mərkəzlərdən aldıqları tezislərə uyğun qurmaq məcburiyyətindədirlər.

Əks təqdirdə maliyyə qaynağından məhrum qala bilərlər. Qərbdən gələn tezislər isə bir qayda olaraq ölkə hakimiyyətinin strateji kursunu iqnor edir, cəmiyyətdə parçalanmaya yol açır. Milli maraqlara təhdidlər yaranmasının fərqində olan hakimiyyət də məsuliyyətini başa düşərək Gürcüstan cəmiyyətinə kənar təsirləri minimallaşdırmağa çalışır. Bəhs olunan qanunun da məhz bu məqsədlə qəbul edildiyi bildirilir. Yeni qanunda xaricdən maliyyələşən təşkilatların fəaliyyətinin şəffaf əsaslarla qurulmasını şərtləndirən bir sıra müddəalar yer alıb. Qanunun tələblərinə əməl etməyənləri isə sərt cəza tədbirləri gözləyir.

## Aİ-nin dərhal işə düşən cəza mexanizmi

Brüssel isə “Xarici təsirin şəffaflığı haqqında” qanunu fərqli baxış bucağından dəyərləndirir. Burada yeni sənəd “ Rusiya qanunu” adlandırılır. Söhbət burada heç də qanunun adından getmir. Avropa İttifaqında elə hesab edirlər ki, bu qanunu qəbul etməsi Gürcüstanın strateji seçimini dəyişmək, Qərbi Rusiya ilə əvəzləmək planlarının tərkib hissəsi, açar nöqtəsidir.



Qanun qəbul edildikdən sonra Avropa İttifaqının Gürcüstana əsl üzünü göstərməsi üçün uzun zaman keçiyi lazım gəlmədi. Qonşu ölkəyə qarşı cəza mexanizmi həmən işə salınıb və onun əhatə dairəsi getdikcə genişləndirilir. Məqsəd isə Gürcüstanı yenidən ram etməkdən ibarətdir.

“Gürcüstanın Avropa İttifaqına inteqrasiya prosesi dayandırılıb”. Bunu Avropa İttifaqının Gürcüstandakı səfiri Pavel Qerçinski Tbilisidə Aİ-nin genişləndirilməsinə həsr edilmiş konfrans zamanı deyib. O həmçinin bildirib ki, Aİ tərəfindən Gürcüstanın müdafiə sahəsinə dəstək üçün nəzərdə tutulan 30 milyon avro məbləğində vəsaitin ayrılması da qeyri-müəyyən müddətə təxirə salınıb. Diplomat onu da bəyan edib ki, bu, sözügedən qurumun Gürcüstanla bağlı planlaşdırdığı tədbirlərin hələ hamısı deyil. Pavel Qerçinski vurğulayıb ki, hazırda Gürcüstanın Avropa İttifaqına qəbulu dayandırılıb. Diplomat bunu iyunun 27-də Avropa İttifaqının liderlərinin çox aydın ifadə etdiklərini diqqətə çatdıraraq deyib: “Oktyabrda bütün namizəd ölkələr üçün genişlənmə hesabatı dərc olunacaq və Aİ liderləri dekabrda növbəti addımlar barədə qərar qəbul edəcəklər. Lakin indiki vəziyyətdə Gürcüstanın bu il irəliləyəcəyini, növbəti mərhələyə keçəcəyini təsəvvür edə bilmirəm. Məhz ona görə ki, liderlər Gürcüstanın üzvlük prosesini dayandırmaq qərarına gəliblər”.

Avropa İttifaqı ilə yanaşı, NATO üzrə müttəfiqlər də Gürcüstana qarşı hərəkətə keçiblər. Bu günlərdə Amerika Birləşmiş Ştatlarının Milli Təhlükəsizlik Şurasının Avropa məsələləri üzrə baş müşaviri, səfir Maykl Karpenter Gürcüstanda keçirilən “Ləyaqətli Tərəfdaş 2024” hərbi təliminin qeyri-müəyyən müddətə təxirə salınmasını şərh edib və bildirib ki, hazırda ABŞ-ın bütün proqramları nəzərdən keçirilmə prosesindədir. Səfir Karpenter NATO sammitindən əvvəl keçirilən brifinqdə belə deyib: Vətəndaş cəmiyyətinin sıxışdırılmasını, Gürcüstanda fundamental azadlıqlar üçün məkanı məhdudlaşdıran qanunların qəbulu NATO alyansının əsasını təşkil edən dəyərlərə uyğun gəlmir və düşünmürük ki, bu, Avropa İttifaqı da daxil olmaqla Avro-Atlantik inteqrasiyasına da uyğun gəlsin. Biz ümid edirik ki, Gürcüstan hökumətinin istiqaməti, strateji istiqaməti dəyişəcək”.

Cəza tədbirlərindən biri də Danimarkadan gəlib. Belə ki, NATO-nun üzvü olan Danimarka Gürcüstana çoxmilyonluq hərbi yardımı dayandırıb. Verilən məlumata görə Danimarka ötən il Gürcüstanda ümumi büdcəsi 27,12 milyon lari müəyyən edilmiş “Sülh və Sabitləşmə Proqramı”na başlayıb. Proqramın icrası qeyri-müəyyən müddətədək təxirə salınıb...

## Prezident, siyasi müxalifət birləşir və yaxud Gürcüstanda yeni inqilab ssenarisi

Gözlənildiyi kimi, Qərb seçimində tərəddüdlər yaşayan Gürcüstana təzyiqlərini eyni zamanda siyasi müstəvidə həyata keçirir. Ölkədə yeni inqilab ssenarisinin həyata keçirilməsinə hazırlıqlar aparıldığı barədə ehtimallar güclənir. Bunu Qərb dairələrindən gələn mesajlardan da anlamaq mümkündür. Aİ-nin Tbilisidəki səfiri Pavel Qerçinskinin açıqlamasına diqqət yetirək: “Ümid edirəm ki, oktyabrda Gürcüstanda keçiriləcək seçkilərdən sonra yeni qurulan hökumət, nə olursa olsun, yenidən Avropa İttifaqına inteqrasiya istiqamətində ciddi işə başlayacaq”, - deyə səfir vurğulayıb.

Göründüyü kimi, səfir hələ seçkilərə bir neçə ay qalmış tam əminliklə Gürcüstanda baş verəcək hakimiyyət dəyişikliyinin anonsunu edir. Qərb parlament seçkiləri yolu ilə yeni inqilab ssenarisini hakim komanda ilə ziddiyyətlərdə olan prezident Salome Zurabişvili və siyasi müxalifətlə koordinasiyalı şəkildə həyata keçirmək niyyətindədir. Verilən məlumatlarda bildirilir ki, Aİ-nin Gürcüstan hökumətinə dayandırdığı maliyyənin əhəmiyyətli bir hissəsi qeyri-hökumət təşkilatlarına dəstək məqsədinə yönəldiləcək. Bu isə o anlama gəlir ki, Qərb dairələri payızda gözlənilən “parlament inqilabı”nın maliyyə yükünü də öz üzərinə götürüb.

Hadisələrin gedişindən məlum olur ki, artıq prezident S.Zurabişvili və siyasi müxalifət təşkilatlanma və cəmiyyətin yeni ssenariyə hazırlanması prosesinə start veriblər. Salome Zurabişvili onu təbliğ edir ki, Amerika Birləşmiş Ştatlarının Gürcüstandakı hərbi təlimlərini təxirə salması və Avropa İttifaqının müdafiə qüvvələrinə ayrılan 30 milyon avroluq yardımı dondurmaq qərarı hakim partiyanın “ağılsız və düşmən siyasətinə” görədir. Onun sözlərinə görə, Gürcüstanın ən yaxın iki dostundan alınan “çox ağır mesajlar” diqqətdən kənarda qala bilməz. “Düzdür, bu, hakim partiyanın onlara qarşı axmaq və düşmənçilik siyasətinə cavabdır, eyni zamanda, itimaiyyətə xəbərdarlıqdır: tərəfdaşlarımız bizə deyirlər ki, seçim “sizin ixtiyarınızdadır” - ya Avropa, təhlükəsiz gələcək, ya da təcrid olunmuş, Rusiyanın orbitinə daxil olmuş Gürcüstan”, - deyə prezident sosial şəbəkə hesabındakı paylaşımında vurğulayıb.

Bu arada siyasi müxalifət də yenidən təşkilatlanır. Ölkədə parlament seçkiləri öncəsi daha bir müxalifət birliyi yaranıb. “Axali”, “Droa” və “Qirçi - daha çox azadlıq” partiyaları oktyabrda keçiriləcək seçkilərə birgə qatılacaqlarını bəyan ediblər. Digər partiyalarla da danışıqlar aparılır. İyulun 8-də “Vahid Milli Hərəkat”ın qurultayında yeni platformanın təqdimatı baş tutub. “Vahid Milli Hərəkat”ın lideri kimi təsdiqlənən Tina Bokuçava indiki həssas məqamda birlik çağırışı edib. “Əgər bu mərhələdə digər partiyalar birləşə bilmədisə, gəlin siyasətçilərlə, ictimai fəal insanlarla, vətəndaş cəmiyyəti təşkilatları ilə və ən əsası bizə birliyin gücünü ən yaxşı şəkildə göstərmiş gənclərlə birləşək”, - deyə Bokuçava bildirib.

## Hakimiyyətin nikbinliyi...

Proseslərin gedişi və Gürcüstandan gələn açıqlamalar onu deməyə əsas verir ki, hökumət hələlik qəti seçimini bəyan etməyib. Hakimiyyət nümayəndələri açıqlamalarında bir tərəfdən ona işarə edirlər ki, Qərbə inteqrasiyadan geri dönmək ölkəyə itirilmiş torpaqlarının geri qaytarmaq və federasiya formatında Gürcüstanın ərazi bütövlüyünü, suverenliyini təmin etmək perspektivləri aça bilər.

Bununla belə, Aİ yolundan geri dönüşünü birmənalı şəkildə bəyan etmək hakim komanda üçün çox riskli idir. Çünki Gürcüstan cəmiyyəti məhz QHT-lər vasitəsilə Avropaya əhəmiyyətli dərəcədə inteqrasiya edib. Bu səbəbdən də hakimiyyət təmsilçiləri Avropa İttifaqı ilə münasibətlərin perspektivləri ilə bağlı nikbin danışmağa üstünlük verirlər. Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvili Avropa İttifaqının Gürcüstana hərbi maliyyə yardımını dondurmasına münasibət bildirib. Darçiaşvili Gürcüstanın təhlükəsizlik çağırışlarının və işğal probleminin qaldığını, bu cür yardımların ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə xidmət etdiyini bildirib.

O, belə qərarların Gürcüstanın Aİ-yə inteqrasiya səylərinə mane olmayacağını əlavə edib: “Gürcüstan müdafiə qabiliyyətini daha da gücləndirməlidir ki, biz təhdidlərlə daha çox mübarizə apara bilək. Biz bu istiqamətdə Aİ ilə əməkdaşlığı davam etdirəcəyik. Ümumilikdə isə Gürcüstanla Aİ arasında əməkdaşlıq assosiasiya sazişinə əsaslanır. Biz hamımız öz öhdəliklərimizi götürmüşük və bu öhdəlikləri ardıcıl olaraq yerinə yetiririk”.

**Mübariz ABDULLAYEV**

# Zelenski tələb edir

## Kiyev hələ də vəd edilən F-16 qırıcılarını ala bilməyib

**2022-ci ilin fevral ayında başlayan Rusiya-Ukrayna müharibəsi region üçün ağır nəticələr verib. Sonu görünməyən müharibə indiyə qədər həm Rusiyaya, həm də Ukraynaya xeyli ziyan vurub. Belə ki, Ukraynada minlərlə mülki insan həyatını itirib, hərbçilər həlak olub, xeyli sayda infrastruktur dağıdılıb, milyonlarla insan qaçqın vəziyyətinə düşüb. Bu ölkənin ərazisinin 20 faizə yaxını hazırda Rusiya ordusunun nəzarətindədir. Müharibə Rusiya üçün də ağır nəticələrə səbəb olub. Bu günə qədər hər iki tərəfin döyüşlərdə, ümumilikdə, on minlərlə hərbçisinin həlak olduğu barədə məlumatlar var. İlk vaxtlarda Qərb Ukraynaya hərbi baxımdan ciddi dəstək versə də, sonradan həm Avropa İttifaqı, həm də ABŞ-da Ukraynaya yeni yardımların edilməsi ilə əlaqədar müəyyən problemlər yarandı. Xüsusilə, ABŞ Konqresinin uzun müddət Kiyevə əlavə yardımları təsdiqləməməsi vəziyyəti daha da çətinləşdirdi. Bu da Ukraynanın yeni ərazi itkisinə səbəb oldu. Amma "Ramştayn" platforması", NATO-Ukrayna Şurası Kiyevə hərbi dəstəyi azaltmamaq üçün imkanlar axtarır. Bu ilin yazında ABŞ Konqresi də Ukraynaya hərbi yardım üçün müvafiq qanun qəbul etdi. Yaz aylarından etibarən Ukraynaya növbəti silah tədarükünə başlansa da, bu, cəbhədə vəziyyəti dəyişməyib.**

### Kiyev F-16 qırıcılarını çox önəmli hesab edir

Bütün bunların fonunda F-16 qırıcılarının Ukraynaya verilməsi məsələsi qüvvədə qalır. Kiyev bu qırıcıları əks-hücum əməliyyatları üçün çox önəmli hesab edir. Lakin ABŞ F-16-ların verilməməsini ukraynalı pilotların onları idarə etməyə hazır olmamaları ilə əsaslandırırdı. Bu ilin yanvarında Qərb mətbuatında Ukrayna Hərbi Hava Qüvvələrinə artıq F-16 qırıcılarının təhvil verilməsi barədə xəbərlər yayılsa da, Kiyev tərəfindən təkzib olunmuşdu.

"Newsweek" nəşri adı açıqlanmayan mənbəyə istinadən bildirmişdi ki, Qərb ölkələrinin vəd etdiyi F-16 qırıcılarının birinci partiyası artıq Ukraynadadır. Jurnal qeyd edib ki, son günlər "bəzi rusiyapərəst və ya anti-Ukrayna kanalları" Ukraynanın Rusiya hədəflərini məhv etmək üçün F-16-lardan istifadə etməsi barədə məlumat yayıb. Ukrayna Hərbi Hava Qüvvələrinin nümayəndəsi Yuri İqnat isə bu məlumatı təkzib edərək demişdi ki, "Newsweek" materialında təqdim olunan məlumat həqiqətə uyğun deyil.



### Zelenski: Bizə 128 ədəd F-16 verin



Yeri gəlmişkən, Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ-da keçirilən NATO sammitinin ilk günündə çıxış edərkən bildirib ki, Qərbin Ukraynaya tədarük edəcəyi F-16 qırıcıları yetərli deyil, Kiyevə yüzdən çox belə təyyarə lazımdır. Zelenski Vaşinqtondakı Ronald Reyqan Mərkəzində çıxışı zamanı deyib: "F-16 ilə bağlı problem onların sayı və tədarük vaxtıdır... Bizim 10-20 qırıcı haqqında qərarımız var, 50 olsa da, bu heç nədir". Ukrayna Prezidenti 128 ədəd qırıcı tələb edərək vurğulayıb ki, tərəfdaşları bu qədər təyyarəyə malikdir.

Xatırladaq ki, ötən ilin 19-21 may tarixlərində Yaponiyanın Xirosima şəhərində "Böyük Yeddilik" (G7) ölkələrinin liderlərinin sammitində Ukraynaya F-16 qırıcılarının verilməsi ilə bağlı razılıq əldə olunmuşdu. Rəsmi Kiyev aviasiya koalisiyası yaradıldığını elan edib və Müdafiə Nazirliyi F-16-ların həmin ilin payızında Ukraynada ola biləcəyinə eyham vurmuşdu. Həmin vaxt bir sıra Avropa ölkələri də aviasiya koalisiyasına qoşulmağa hazır olduqlarını bildirmişdilər. ABŞ prezidenti Cozef Bayden F-16-larda ukraynalı pilotların təliminə başlanmasını dəstəklədiyini açıqlamışdı. Bayden hətta Ukrayna lideri Volodimir Zelenskidən Ukrayna Silahlı Qüvvələrinin Rusiya ərazisinə irəliləmək üçün dördüncü nəsil F-16 qırıcılarından istifadə etməyəcəyinə dair zəmanət aldığını bildirmişdi.

Avropa İttifaqı da Ukraynaya F-16 qırıcı təyyarələrinin göndərilməsi barədə G7-nin qərarını alqışlayıb. Ötən ilin iyul ayında isə NATO ölkələri ukraynalı pilotların F-16 üçün hazırlanması planını təsdiqləyib. NATO-nun Baş katibi Yens Stoltenberq bu barədə bildirmişdi ki, indi əsas məsələ Ukraynanın silah və sursat tədarükünə zəmanət verməklə onun bu müharibədə qalib gəlməsi üçün bütün lazım olanı etməkdir. Avqustun sonunda isə Niderland 42 ədəd, Danimarka isə 19 ədəd F-16 qırıcısını Kiyevə verməyə hazır olduqlarını bəyan etmişdi. Hazırkı mərhələdə isə bəzi NATO ölkələrinin ərazisində F-16 qırıcıları ilə bağlı ukraynalı pilotlara təlimlər keçirilir. Belə ki, 2023-cü ilin sonlarında Ukrayna Silahlı Qüvvələrinin ilk pilotları Böyük Britaniyada F-16 qırıcılarının əsas uçuş hazırlığı kursunu bitiriblər. Ukraynalı hərbçilərdən təşkil olunan altı nəfərlik pilotlar qrupu F-16 qırıcılarında uçuş bacarıqları üzrə kursu bitirərək Danimarkada təlim uçuşlarına başlayıb. On nəfərdən ibarət digər qrup isə Böyük Britaniyada təlimlərini davam etdirir.

ABŞ Müdafiə Departamentinin sözçüsü, general Pat Rayder isə deyib ki, ABŞ-da F-16-lardan istifadəni öyrənən ukraynalı pilotlar 2024-cü ilin sonuna qədər təlimləri tamamlamalıdırlar: "Mən bu hərbçilərin bu ilin sonunda məzun olacağını gözləyirəm. Təlim ABŞ Hərbi Hava Qüvvələrinin Arizonadakı bazasında keçirilir və hər bir pilotun bacarığından asılı olaraq 5 aydan 8 aya qədər davam edir".

Ukrayna Silahlı Qüvvələrinin pilotlarının Aİ ölkələrində də hazırlığı davam edir. Bir neçə ay öncə Belçika Ukrayna pilotlarına təlim keçmək üçün Danimarkaya iki F-16 qırıcısı və 50 təlimatçı göndərdiyini açıqlamışdı. Yeri gəlmişkən, Danimarka ilk 6 F-16 qırıcısının Ukraynaya çatdırılmasını bu ilin ikinci rübünə nəzərdə tutsa da, qırıcılar hələ də verilməyib. Qeyd etdiyimiz kimi, Danimarka 2023-cü ilin avqustunda Ukraynaya 19 F-16 qırıcısı göndərəcəyini vəd etmişdi. Birləşmiş Ştatlar Danimarka və Niderland tərəfindən öz təyyarələrinin Kiyevə təhvil verilməsinə icazə verib. Həmçinin Norveç də Ukraynaya qırıcılar vermək niyyətindədir. Belçika isə 2025-ci ilə qədər F-16-ları Ukraynaya göndərməyi planlaşdırır.

### Rusiyanın hədəfinə çevriləcək...

Göründüyü kimi, Kiyev hələ də bu qırıcıları əldə edə bilməyib. Halbuki, ilk F-16-ların iyul ayında Kiyevə təhvil veriləcəyi bildirilirdi. Əgər tərəfdaşları vədlərinə əməl edərsə, cari ildə proses reallaşacaq. F-16 təyyarələrinin müharibədə dönüş yarada biləcəyini isə gələcək göstərəcək. Belə bir şəraitdə Zelenskinin daha çox F-16 qırıcısı tələb etməsi real görünmür.

Rəsmi Moskva isə hesab edir ki, Ukraynaya silah tədarükü nizamlanmaya mane olur və NATO ölkələrini münaqişəyə birbaşa cəlb edir. Xarici işlər naziri Sergey Lavrov qeyd edib ki, Ukraynaya göndərilən istənilən silah Rusiya üçün qanuni hədəfə çevriləcək. Onun sözlərinə görə, ABŞ və NATO təkcə silah tədarükü ilə deyil, həm də Böyük Britaniya, Almaniya, İtaliya və digər ölkələrdə kadrların hazırlanması ilə münaqişədə bilavasitə iştirak edir.

*N.BAYRAMLI*

# Stalinin bəyəndiyi antisovet əsər

## Mixail Şoloxovun "Sakit Don" roman-epopeyası haqqında

1964-cü ildə Jan-Pol Sartr ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldü. Ancaq böyük yazıçı, dramaturq, filosof ali mükafatdan imtina elədi. İmtinanın bir səbəbi onun heç bir sosial təsisatdan, ictimai institutdan (hətta bu təsisat, yaxud institut nə qədər müsbət, şərəfli işlər görsə belə) asılı olmamaq istəyinə bağlıydısa, səbəblərdən biri də Nobel komitəsinin sosialist düşərgəsinə, o cümlədən sovet ədəbiyyatına soyuq, biganə münasibətiydi. Sartr təəssüflə söyləyirdi ki, sovet yazıçıları arasında dünyanın ən nüfuzlu ədəbi mükafatına nəmənə Şoloxov yox, Pasternak layiq görülüb, üstəlik, laureatın əsəri (yəni "Doktor Jivaqo" romanı) yalnız ölkə xaricində işıq üzü görüb, öz ölkəsində isə bu əsərin nəşri qadağan olunduğuna görə xalqın ondan xəbəri yoxdur.

Bilmirəm Sartrın bu sözləri Nobel komitəsinin üzvlərinə təsir göstərmişdi, ya yox, ancaq növbəti il - 1965-ci ildə ədəbiyyat üzrə Nobel mükafatını "Sakit Don"un müəllifi aldı. Doğrudur, buna qədər Şoloxovun Nobelə namizədliyi bir neçə dəfə irəli sürülmüşdü, fəqət sovet dövlətinin bütün çevirdiyi yazıçı hər dəfə seçilmişlər siyahısından kənarda qalmışdı. Bu da təsadüfi deyil - Nobel mükafatının ədəbiyyat üzrə münsiflərinin siyasətdən də başı çıxır.

Şoloxovdan əvvəl ali ədəbi mükafata yalnız iki rus yazıçısı - emiqrasiyada yaşayan İvan Bunin, bir də öz vətənində emiqrant həyatı yaşayan Boris Pasternak layiq görülmüşdü. Onların hər ikisinin uğurunda siyasi motiv tapmaq olar, amma Şoloxova münasibətdə belə bir motivin varlığından danışmaq mümkün deyil, çünki Şoloxov sovet hökumətinin sevimlisi, hər cür imtiyaza əli çatan "rəsmi" sovet yazıçısıydı. Bu üstünlük, bu rəsmi rəğbət ondan qabaqkı, nə də ondan sonrakı (Aleksandr Soljenitsın, İosif Brodski) rus nobelçilərinə qismət olmuşdu.

***

Doğrudur, Şoloxov da şöhrətə gedən yolu asanlıqla keçməmişdi. Bunin kimi ömürlük qürbətdə, Pasternak kimi daimi basqı altında, Soljenitsın kimi gedər-gəlməz sürgündə, Brodski kimi siyasi türmədə yaşamasa da, ta gəncliyindən ədəbi xəfiyyələrin, ədəbi casusların, ədəbi cəlladların mühasirəsində yazıb yaratmış, öz varlığını sübuta yetirməkdən ötrü ölənəcən mübarizə aparmışdı. "Sakit Don"un birinci, ikinci cildləri işıq üzü görər-görməz onun haqqında şayiələr yayılmışdı: guya Şoloxov bu romanı özü yazmayıb, o vaxta qədər imzası artıq tanınan, ötən əsrin iyirminci ilində tifdən ölmüş Fyodor Kryukov adlı ağqvardiyaçı zabitin yarımçıq əsərini mənimsəyib. Özü də kazak əsilli iki nömrəli sovet yazıçısı (bir nömrəli, əlbəttə, Qorki idi) Aleksandr Serafimoviçin sayəsində roman-epopeyanın ilk iki kitabı xüsusi çətinlik görmədən çap olunsa da (Serafimoviç Şoloxovun romanıyla tanışlıqdan sonra baş redaktoru olduğu "Oktyabr" jurnalının çapa gedən nömrəsindən öz əsərini çıxarıb, yerinə "Sakit Don"un birinci hissəsini qoymuşdu), bu kimi şayiələr nəticəsində üçüncü cildin nəşri daşa dirəndi. Gənc yazıçının üstünə dörd tərəfdən şər-böhtan daşları, tənə oxları yağdırıldı, cavanlığı onun başına qaxıldı, o yaşda şedevr yaratmağı dövrünün ən azman, ən cəsarətli, ən doğruçu, ən gerçəkçi qələm ustasına nöqsan tutuldu.

Çərxi-fələyin qəribə işləri var: bəzən ən doğru, ən obyektiv sözü ən yalançı, ən qərəzli adam deyir. Bəzən Tanrı ən əziz adamını İblisin əliylə qoruyur. Belə bir möcüzə Şoloxovun da başına gəldi - yetmiş illik sovet hakimiyyəti dövründə yazılmış ən antisovet romanın müəllifini qəddar düşmənlərinin əlindən iyirminci əsrin ən amansız tiranı İosif Stalin aldı. Əvvəlcə Serafimoviçin təşəbbüsüylə komissiya yaradıldı, Şoloxov əlyazmalarını həmin komissiyaya təqdim elədi, romanın yaranma, yazılma prosesi araşdırıldı, nəhayət, əsərin Şoloxova məxsus olduğu SSRİ-nin baş mətbuat orqanı "Pravda" qəzetində çap olunan bir yazıyla rəsmən təsdiqləndi.

Üçüncü kitabın bəxtinin açılmağına gəlincə, bu məsələ sovet yazıçılarının komandanı Maksim Qorkinin bağında keçirilən bir görüşdə çözülmüşdü. Stalin o bağda ev yiyəsinin təşəbbüsüylə hələ şəxsən tanımadığı Şoloxovla görüşmüşdü, onun arqumentlərini dinləyəndən, öz suallarına cavab alandan, yeni cildin məzmunuyla tanış olandan sonra üçüncü kitabın çapına razılıq vermişdi. Bununla da sovet ədəbi nəşrlərinin qapıları Şoloxovun üzünə yenidən açılmışdı.

Fəqət yazıçıya düşmən kəsilənlərin dili-ağzı ondan sonra da bağlanmadı, bu gün də bağlanmayıb. İnsafən, onların arqumentləri də güclü, inandırıcı görünür, həm də romanı təkcə Kryukovun adına çıxmayıblar, ötən səksən il ərzində Şoloxova onlarla "şərik" tapıblar, bəziləri öz qənaətlərində absurda qədər gedib çıxıb. Eynən bizim Qurban Səid imzası altında üzə çıxarılmış "Əli və Nino"muzun müəllifliyi ilə bağlı dartışmalarda məsələni həm Yusif Vəzir Çəmənzəminlinin, həm də Məhəmməd Əsəd bəyin xeyrinə həll eləməyə çalışanların əlində daşdan keçən dəlillər olduğu kimi, "Sakit Don"la bağlı da hər iki cəbhədə duranların sərəncamında təkzibə dözümlü sübutlar var. Mübahisələr o dərəcəyə qədər şişib ki, az qala filologiya elmində ayrıca sahəyə çevrilib, bu məsələyə həsr olunmuş, məqalələr bir yana, kitablar yazılıb, geniş miqyaslı araşdırmalar aparılıb.

***

Axtarışların nəticəsi nə olur olsun, "Sakit Don" epopeyası iyirminci əsr ədəbiyyatının misilsiz abidələrindən biri, öz sahəsində, mərtəbəsində tayı-bərabəri olmayan bir əsərdir. Hələlik təkzib olunmamış bioqrafik sənədlər (bundan sonra da təsdiqini tapacağına inanıram) bizə deyir ki, müəllif romanı yazmağa təqribən iyirmi yaşında - 1925-ci ildə başlayıb. Üstündən on beş il keçəndən sonra - 1940-cı ildə əsərin sonuncu kitabı işıq üzü görüb. Bu minvalla epopeya on beş ilə ərsəyə gəlib. Roman dörd kitab, səkkiz bölümdən ibarətdir. Əsərdə hadisələr təxminən on il ərzində - 1912-ci ildən 1922-ci ilə qədər cərəyan eləyir. Bu zaman kəsiyi Rusiya tarixinin ən qanlı-qadalı, ən bəlalı-qovğalı dövrüdür - Birinci Dünya müharibəsi, monarxiyanın devrilməsi, Müvəqqəti hökumət, Oktyabr inqilabı, ardınca da ağlarla qırmızılar arasında vətəndaş qırğını... Təkcə bunu demək yetər ki, Don kazaklarının yarısı bu savaşlardan salamat çıxmamışdı.

Epopeyada kiminin hesablamasına görə 700-dən artıq, kiminin də hesabıyla 850-yə qədər adlı-adsız personaj var. Müəllif bu irili-xırdalı personajların, demək olar, hər birini oxucuya xarakterik cizgiləriylə təqdim eləyir. Roman həm epoxal əhəmiyyətli təbəddülatlarla, həm də ailə-məişət səviyyəli toqquşmalarla zəngindir. Hadisələr əsasən Don çayı qırağındakı məkanlarda, kazakların məskunlaşdığı ərazilərdə, müəllifin çox yaxşı bələd olduğu yerlərdə cərəyan eləyir. Əvvəlki məşhur rus romanlarından fərqli olaraq "Sakit Don"un aparıcı qəhrəmanları zadəganlar, burjuylar, ziyalılar yox, sadə, avam, savadsız, amma zəngin xarakterli, çılğın temperamentli, təzadlı insanlardır. Yazıçı həyata, hadisələrə, təbiətə onların gözüylə baxır, təkcə dialoqlarda yox, təhkiyəsində də onların diliylə danışır.

Roman Don kazaklarının ləhcəsində işlənən dialekt sözlərlə doludur. Mən bu faktı xüsusən də el dilində dövriyyədə olan, hansısa bölgənin sərhədini aşa bilməsə də, ümumişlək status qazanmağa layiq sözlərimizə, necə deyərlər, papaq altında yatan qızıl kimi kəlmələrə, ifadələrə xor baxan gənclərimizin nəzərinə çatdırmaq istərdim: nədənsə kazak ləhcəsi "Sakit Don"un nə Rusiya miqyasında, nə də bütün dünyaya yayılmasına mane olmayıb. Əlbəttə, ləhcə sözlərindən yeri gəldi-gəlmədi hər əsərdə istifadə eləmək olmaz, ancaq bu sözlərin işlənməsinə qadağa qoymaq, hansısa dialektin əsarətində qalmış kəlmələrin, ifadələrin ümumişlək ədəbi dilə yolunu bağlamaq da dilə qənim kəsilməkdir. Hələ burasını demirəm ki, klassik ədəbiyyatımızda, o cümlədən Azərbaycan sovet klassiklərinin əsərlərində nə qədər qiymətli sözlərimiz mürgüləyir...

***

"Sakit Don" həm ailə-məişət dramı, həm də xalqın sosial-epoxal tarixinin salnaməsidir. Əsərin mərkəzində Melexovların taleyi durur. Baş qəhrəman Qriqori Melexovun babası Prokofi keçmiş zamanlarda rus-türk savaşından bir osmanlı qızıyla qayıdıb, sonra həmin qızla evlənib. Ona görə də kənddə onun törəmələrinə "türklər" deyirlər. Sonradan yerli adamlar, fanatik xristianlar yad gəlini, müsəlman qızını cadugər, ifritə saydıqlarından onu linç eləyiblər. Bu səbəbdən "Melexovların evi xutorun lap kənarındadır" (əsər bu cümləylə başlayır). Yeri gəlmişkən, xutorun Tatarsk adlanması da, çox güman, bu faktdan qaynaqlanır.

Qriqorinin atası - xarakterində kazak çılğınlığıyla türk coşqusunu birləşdirən, axsaq ayağını çəkdiyinə görə taytıya-taytıya yeriyən, donqarburun, qulağı sırğalı Panteley Prokofyeviç hökmlü, cığal, bir az hiyləgər, bir az da zalım qocadır. Anası Vasilisa İliniçna övladlarının atasına daban-dabana zidd olan bir qadındır - təmkinli, fədakar, mömin tipdir. Qriqorinin özündən böyük qardaşı (Petro), özündən kiçik bacısı (Dunyaşa) var. Petronun arvadı Darya həyatsevər, zarafatcıl, ehtiraslı bir gəlindir, ancaq nədənsə övladı olmur.

Onların qonşuluğunda yaşayan gənc Astaxovlar ailəsinin də övladı yoxdur. Stepan Astaxovun iyirmi yaşlı arvadı Aksinya çox gözəl, yaraşıqlı, qara gözlü, dolğun dodaqlı çılğın bir kazak qızıdır, bu kəndə üç il qabaq qonşu xutordan gəlin gəlib, bir cüt uşaq doğsa da, uşaqların hər ikisi körpəykən ölüb. Toyundan bir il əvvəl əlli yaşlı atası başıbəlalı Aksinyanı işləməyə getdikləri çöldə zorlayıb, anasıyla qardaşı bundan xəbər tutanda atanı döyə-döyə öldürüblər. Odur ki, gəlin bakirəliyini toyuna qədər qoruyub saxlamadığına görə ərinin yanında gözükölgəlidir (üstəlik, başına gələni açıb-ağarda da bilmir), qəddar Stepanın yumruğu onun bəlalı başından gecə-gündüz əskik olmur.

Stepan hərbi təlim düşərgəsinə yollanandan sonra Qriqori ilə Aksinya arasında eşq macərası yaşanır. Yazıçı onların münasibətini əsərin sonlarına qədər izləyir; bu münasibət iki gəncin erotik əyləncəsindən, fizioloji bağlılıqdan mənəvi birgəliyə, könül, tale birliyinə qədər uzun, məşəqqətli təkamül yolu keçir. Romandakı Qriqori-Aksinya xətti antik dövrdən üzübəri dünya ədəbiyyatının gördüyü ən parlaq, ən faciəvi sevgi münasibətlərindən biridir.

Belə deyirlər ki, Aksinyanın prototipi yazıçının doğmaca anasıdır, çünki o da zorla verildiyi yaşlı bir tacirin əlindən qaçıb Aleksandr Şoloxovla ailə qurmuşdu, ancaq onlar o zamankı qanunların əngəl törətməsi ucbatından bu münasibəti tacir ölməyincə rəsmiləşdirə bilməmişdilər. Hətta gələcək yazıçı on iki yaşına qədər tacirin soyadını daşımağa məcbur olmuşdu, öz gerçək soyadına yalnız o yaşdan sonra yiyələnə bilmişdi. Fəqət məşhur sovet rejissoru Sergey Gerasimovun 1957-ci ildə çəkdiyi "Sakit Don" filmində Aksinya rolunu oynamış mərhum aktrisa Elina Bıstritskayanın bir müsahibədə dediyinə görə, çəkiliş qrupu Don sahillərində iş başında olduğu zaman Şoloxov ona Aksinyanın qocalıb-qarımış prototipini şəxsən göstəribmiş...

***

Sovet hakimiyyətinin kəshakəs vaxtında qələmə alınmış bu romanın bir qəribəliyi də budur ki, qondarma sosializm realizmi cərəyanının kanonlarına əsla tabe olmur, yuxarıdan verilən ədəbi direktivlərin böyründən keçir. Burada ənənəvi mənada müsbət (elə mənfi də), kommunist ideallarına illüstrasiya sayılacaq nümunəvi qəhrəman yoxdur, obrazlar hərtərəfli, hərüzünə təsvir olunub. Bu fikri baş qəhrəman haqqında da deyə bilərik. Qriqori Melexov yaraşıqlı, mərd, qoçaq, igid oğlandır, müharibə vaxtı kazakların bir polyak qızını kütləvi şəkildə zorladığını görəndə zavallı qadını onların əlindən almağa çalışır, ancaq bir sürü gözü qızmış yırtıcıya gücü çatmır, kazaklar onu yerə yıxıb əl-ayağını bağlayırlar. Ölümcül yaralanmış bir zabiti ən ağır şəraitdə çox böyük çətinliklə, həyatını riskə atmaq bahasına xilas eləyir, buna görə Georgi xaçı alır. Şərqi Prussiyada yaralı Stepan Astaxovu - onu öldürməyə and içmiş rəqibini düşmənin mühasirəsindən çıxarır.

Fəqət müəllif öz qəhrəmanını nə qədər sevsə də, onu idealizə eləmir, gənc Melexovun zalımlığını, impulsiv hərəkətlərini, başqa mənfi cəhətlərini də göstərir. Məsələn, Birinci Dünya müharibəsi zamanı Avstriya-Macarıstan imperiyasının sərhədlərində döyüşən Qriqori silahsız düşmən əsgərini qılıncıyla çapır, hərçənd dərhal peşman olub atdan düşür, uzun-uzadı öz qurbanının tamaşasına durur, həftələrlə yuxusunu qarışdırır, rahat yata bilmir. Çəkdiyi mənəvi əzabları sonralar qardaşıyla da bölüşür. Yaxud gələcək yeznəsi bolşevik Mixail Koşevoyun vətəndaş müharibəsinin gedişində qardaşı Petronu güllələdiyini biləndə atını minib ley kimi qırmızı əsirlərin saxlandığı yerə sürür, bolşeviklər tərəfdən döyüşmüş matrosları qılıncdan keçirir, sonra da üzüqoylu torpağa döşənib hönkür-hönkür ağlayır.

Arvadının ona xəyanət elədiyini hələ təlimdəykən eşidən Stepan evə qayıdanda Aksinyanı vəhşicəsinə döyür, qadın ərinin əlindən birtəhər qurtulub yaralı, əzik canını çölə atır, səsə Qriqori özünü yetirib Stepanın üstünə atılır, ardınca Petro da qardaşına köməyə gəlir. Ancaq Panteley Prokofyeviç oğlunu Aksinyadan soyutmaq üçün onu evləndirmək qərarını verəndə Qriqori atasının iradəsinə asanlıqla təslim olur, Aksinya ilə görüşüb artıq münasibətə son qoymaq vaxtı gəldiyini bildirir, necə deyərlər, həvəsdi, bəsdi. Aksinya bədənindəki qançırları ona göstərib deyir ki, əri onu hər gün qəddarcasına döyür, Qriqori isə bundan çox da təsirlənmir, onun üzündən başı bəlalar çəkən qadını zalım fələyin ümidinə buraxıb getmək onun qəlbini sızlatmır.

Gənc Melexovu imkanlı Korşunov ailəsinin qızı Natalya ilə evləndirirlər. Əslində, Korşunovlar Melexovlara qız verməzdilər, bu ailəni özlərinə tay tutmazdılar, intəhası, Natalya özü Qriqorini seçir, ona ərə getməkdə təkid göstərir. Toydan az sonra Qriqori sevgisiz evlənməklə yanıldığını, odlu-alovlu Aksinyaya nisbətdə arvadının nə qədər sönük olduğunu anlayır, Natalyanın soyuqluğunu, onun kişi duyğularını tərpətmədiyini, arvadını sevmədiyini qəddarcasına zavallı gəlinin birbaşa üzünə söyləyir. Qüruru sındırılmış gəlin - abırlı-həyalı, vəfalı, etibarlı, ailəcanlı Natalya bundan sonra özünə qəsd eləməyə çalışır, kərəntiylə boğazını ağır yaralasa da, ölmür.

Sağalanda Natalya öz doğma yuvasına - atası evinə qayıtmağa can atır, fəqət əsəbi, çılğın Panteley Prokofyeviç buna yol vermir, gəlinini yanında saxlayıb oğlunu qovur. Qriqori Aksinyaya xəbər göndərir, Aksinya ərini yanıldıb gecəylə evdən qaçır, Qriqoriyə qoşulub yaxınlıqdakı mülkədarın yanında qulluğa girir - Qriqori muzdurluq, Aksinya qaravaşlıq eləyir. Burada onların qızı doğulur. Sonra Qriqorini əsgər aparırlar.



*F.Uğurlu*

davamı növbəti sayımızda

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# 10183661 nəfərik...

## Ümumdünya Əhali Günüdür



*Yeganə BAYRAMOVA*

Dünya əhalisinin demoqrafiyası heç bir tarixi dövrdə sabit qalmayıb, hər zaman fərqli, son dövrlər isə artan statistika ilə müşahidə edilir. Kapitalizmdən əvvəlki dövrdə isə dünya əhalisinin sayında yavaş artım müşahidə olunub. Bu isə daha çox uzunmüddətli müharibələr, epidemiyalar, insanların həyat səviyyəsinin aşağı olması ilə əlaqələndirilir.

**Dünya əhalisi sürətlə artarsa...**

1900-cü ildə dünya əhalisinin sayı 1,6 milyard, 1960-cı ildə 3 milyard, 2000-ci ildə 6 milyard nəfər göstərilir. Demoqrafların hesablamalarına görə, dünya əhalisi bu sürətlə artmağa davam edərsə, 2040-cı ildə Yer kürəsində 10 milyard insan yaşayacaq.

**Son demoqrafik vəziyyət**

BMT-nin Əhali Fondu (UNFPA) hesabatında demoqrafiya sahəsindəki son vəziyyəti açıqlayıb. Əhalinin sayına görə, Hindistan birinci yerdədir (1 milyard 600 milyon nəfər). Ondan sonra 1 milyard 425 milyon nəfərlə Çin və 340 milyon nəfərlə ABŞ gəlir.

### Əhalinin artım tempi zəifləyən ölkələr...

**Bu ölkələr 2050-ci ildə...**

UNFPA-nın hesabatında qeyd edilir ki, dünyada əhali artımı ən çox 8 ölkədə cəmləşəcək. Bunlar, Misir, Konqo Demokratik Respublikası, Efiopiya, Hindistan, Nigeriya, Pakistan, Filippin və Tanzaniyadır. Bu ölkələrin 2050-ci ildə dünya əhalisinin yarısına malik olacağı gözlənilir. Eyni zamanda, qlobal əhali sayının artması fonunda artım tempində zəifləmə də müşahidə olunur. Bu templə əhalinin sayı 2030-cu ildə 8,5 milyard, 2050-ci ildə 9,7 milyard, 2100-cü ildə isə 10,4 milyard nəfərə çata bilər.

**Azərbaycanda vəziyyət...**

Dövlət Statistika Komitəsinin son məlumatına görə, ölkə əhalisinin sayı 2024-cü ilin əvvəlindən 2891 nəfər və ya 0,03 faiz artaraq 2024-cü il fevral ayının 1-i vəziyyətinə 10183661 nəfər təşkil edib.

Əhalinin ümumi sayının 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Yeri gəlmişkən, bu gün Ümumdünya Əhali Günü kimi qeyd edilir. 11 iyul 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən Əhali Fondu təsis edilib. Bu tarixin qeyd olunmasında məqsəd ailə planlaşdırılmasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.

# Xoşbəxtlik verən ləziz təam...

## Ümumdünya Şokolad Günüdür

*Yeganə BAYRAMOVA*

Yəqin ki, şokoladı sevməyənlərin sayı o qədər də çox deyil. Etiraf edək ki, yediyimiz bir şokolad parçası hər birimizə fərqli həzzlər hiss etdirir. İyulun 11-i şokoladı sevənlər üçün əlamətdar gündür, onlar bu tarixi xüsusilə qeyd edirlər. Qədim zamanlardan çoxlarının sevdiyi bu ləziz təamın tarixçəsinə nəzər salaq. Hələ 1550-ci il, iyulun 11-də Avropaya ilk dəfə kakao paxlası gətirilir. Elə həmin gündən etibarən dünya bu günü Şokolad Günü kimi qeyd edir.

**"Tanrıların yeməyi"**

Şokoladın elmi adını verən şəxs isveçli təbiətşünas Karl Linneydir. Şokoladın elmi adı "theobroma cacao"dur və mənası "Tanrıların yeməyi" deməkdir.

Sevərək yeyilən şokoladın faydaları müxtəlifdir. Mütəxəssislər xüsusilə depressiyadan əziyyət çəkən və qan azlığı olan şəxslərin şokoladdan daha çox istifadə etməsini məsləhət görürlər.

**Ürəyinizlə dostdur...**

Alman İnsan Qidalanması İnstitutu tərəfindən təxminən 19 min insan üzərində aparılan araşdırmada hər gün 7.5 qram şokolad yeyənlərin təzyiqinin daha aşağı olduğu, bu kəslərdə infarkt və iflic riskinin yüzdə 39 faiz daha az olduğu təsbit edilib.

**Şokolad xoşbəxt edər...**

Şokolad "phenethylamine" (PEA) ifraz etməkdədir. PEA isə sinir sistemini xəbərdar edir, ağrıları sakitləşdirir və insanın özünü yaxşı hiss etməsini təmin edir. Şokolad beyindəki serotonin səviyyəsini artırır və xoşbəxtlik hissi verir. Bu desert beyni rahatlaşdırıb boşaldır, beynin endorfin ifraz etməsinə səbəb olur.

**Dərini və sümükləri qidalandırır**

Şokolad xüsusilə qadınlar üzərində psixoloji olaraq olduqca müsbət təsirlərə malikdir. Şokolad qadınların özlərini yaxşı hiss etmələrini təmin edən endorfini ifraz edir.

Bu ləziz qida, eyni zamanda, öskürəyə və boğaza yaxşı təsir göstərərək boğazı yumşaldır. Yorğunluğa və halsızlığa qarşı enerji anbarıdır. Xüsusilə qara şokolad təzyiqə yaxşı təsir edir.

Ancaq şokoladın xeyirli tərəfləri olmağına baxmayaraq, çox istifadə edildikdə ziyanlı təsirləri də ola bilər.

**İçindəki yağı və şəkəri unutmayın...**

Nəticə olaraq, bir çox faydası ilə bərabər, şokoladın tərkibində yağ və şəkərin miqdarının da yüksək olduğu unudulmamalıdır. Bu səbəblə gündəlik qidalanmada diqqətli istehlak edilməlidir və tərkibində kakao yüksək olan şokolad növləri seçilməlidir.

Şokolad asılılıq yaradır, bir oturuşda böyük bir şokoladı tək başına yemək, ya da gündə ən az 3-4 ədəd istehlak etmək təəssüf ki, pis bir asılılıqdır.






# "Nar"ın "Al bir, aç min" kampaniyası ilə yayı doyunca yaşa!

Sərfəli xidmətləri ilə müştərilərinə ən yaxın olan "Nar" yenilənmiş brend strategiyasının davamı olaraq, "Al bir, aç min" kampaniyasını təqdim edir. "Nar" ilin ən çox gözlənilən kampaniyası ilə hər bir müştərisinə unudulmaz yay mövsümü vəd edir.

Yay ərzində fərqli sürprizləri özündə birləşdirən kampaniyanın ilk mərhələsi 10 iyul tarixində başlayacaq. "Nar" sosial media hesablarında təqdim etdiyi müsabiqədə müştərilərinə 1000 GB internet bonusu və 4 ədəd "iPhone 15" hədiyyə edəcək. Kampaniya boyunca digər hədiyyəli müsabiqələrdən də vaxtında xəbərdar olmaq üçün "Nar"ın rəsmi sosial media səhifələrini (Facebook, Instagram, X və LinkedIn) izləməyiniz tövsiyə olunur.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## *İdman*

# Qurban Qurbanov: Toplanışın qarşıdakı bir həftəsi bizim üçün çox vacibdir



"Bütün komanda üzvləri çox həvəslə, istəklə hazırlıq keçirlər".

AZƏRTAC xəbər verir ki, bu sözləri "Qarabağ" komandasının baş məşqçisi Qurban Qurbanov Avstriyada keçirilən təlim-məşq toplanışı barədə klubun rəsmi saytına açıqlamasında deyib.

Mütəxəssis "Kayzerslautern" (1:3) və "Viktoriya" (2:1) ilə keçirilən yoxlama oyunları barədə fikirlərini bildirib: "Avstriyadakı ilk oyun günü yaxşı alındı. Bütün futbolçularımızın 90 dəqiqə meydanda olması çox vacib idi. İki yaxşı rəqiblə qarşılaşdıq. Hava şəraiti çox isti olsa da, oyunlar dinamik keçdi. Düzdür, günün ilk matçında məğlub olduq. Amma bu görüşdə qolları fərdi səhvlərdən buraxdıq".

Baş məşqçi Avstriyadakı hazırlıq prosesini də dəyərləndirib: "Hazırlığın vacib olan ikinci mərhələsindəyik. Mövsümün hazırlıq prosesini yoxlama oyunları ilə tamamlamaq istəyirik. Bu gün keçirilən hər iki matçdan da, futbolçulardan da razı qaldım. Toplanışın qarşıdakı bir həftəsi bizim üçün çox vacibdir. Bu müddətdə futbolçuların idman formalarını tam geri qaytarmalı və bəzi texniki səhvləri aradan qaldırmalıyıq. Bütün komanda üzvləri çox həvəslə, istəklə hazırlıq keçirlər. Avstriya toplanışında olduğumuz müddətdə onların hər birindən razıyam".

# Gənclər və İdman Nazirliyinin növbəti kollegiya iclası



Gənclər və İdman Nazirliyinin növbəti kollegiya iclası keçirilib.

Qurumdan AZƏRTAC-a verilən məlumata görə, gənclər və idman naziri Fərid Qayıbovun sədrliyi ilə keçən iclasın gündəliyinə əsasən, bir sıra məsələlər müzakirə edilib və müvafiq qərarlar qəbul edilib.

Kollegiya iclasında "Öyrədənlər platforması" barədə təqdimat dinlənilib və layihənin icra edilməsi barədə qərar qəbul olunub. Həmçinin 2024-cü il üçün idman növləri üzrə yığma komandaların, məşqçi və idmançı heyətlərinin yenilənmiş siyahısı müzakirə olunaraq səsvermə ilə təsdiqlənib.

Tədbirdə idman mütəxəssislərinə fəxri adların verilməsi məsələsinə də baxılıb və nazirliyin kollegiya qərarı ilə Ramal Əsgərov, İlqar Tağıyev "Azərbaycan Respublikasının Fəxri bədən tərbiyəsi və idman işçisi" adına layiq görülüblər.

# Elçin Usub: Avropa Klublar İttifaqının gördüyü iş Azərbaycan futboluna da təsirsiz ötüşməyəcək

UEC-in Avropa məkanında gördüyü iş Azərbaycan futboluna da təsirsiz ötüşməyəcək. Hətta artıq ilk pozitiv nəticə ortadadır.

Bunu "Report"a açıqlamasında "Şamaxı" klubunun İdarə Heyətinin sədri Elçin Usub bir neçə gün öncə iştirak etdiyi Avropa Klublar İttifaqının (UEC) iclası haqda təəssüratlarını bölüşərkən deyib.

Klub rəhbəri iclasda bir çox məsələlərin müzakirə olunduğunu söyləyib:

"UEC 2 ilə yaxındır fəaliyyətə başlayıb. İlkin ideya Avropada ilk beş top-liqanı təmsil edən elit klubların hegemonluğu nəticəsində rəqabət mühitinin pisləşməsinə müqavimət göstərmək olub. Avropada rəqabət mühitinin kiçik-ortabab klubların ziyanına dəyişməsi futbola marağın azalmasına, həmçinin digər neqativ hallara gətirib çıxara bilər. UEC cari ilin aprelində İdarə Heyəti formalaşdırıb. "Şamaxı" klubunun rəhbəri kimi mən də orada təmsil olunmuşam. İyulun 3-də Brüsseldə İdarə Heyətinin ilk ümumi iclası keçirildi. Bir çox məsələlər müzakirə edildi, gələcək planlar barədə fikir mübadiləsi oldu. İdarə Heyətində işçi qrupları yaradılıb. Mən hüquqi tənzimləmələr qrupunun üzvüyəm. Oktyabrda keçiriləcək növbəti ümumi yığıncağa qədər gərgin iş gedəcək, müvafiq təkliflər ictimaiyyətə təqdim olunacaq".

O, qarşıda duran hədəflər haqqında danışıb:

"Avropanın ən baxımlı və maraqlı yarışı olan Çempionlar liqasının 1/4 finalına çıxan klubların hansı ölkələrdən olması dinamikasını araşdırsaq, görərik ki, 1993-2002-ci illərdə klubların 17 faizi, 2003-2012-ci illərdə 7 faizi, 2013-2022-ci illərdə isə cəmi 5faizi top-5 liqalardan olmayıb. UEC-in yaradılmasında məqsəd Avropada bu cür neqativ tendensiyalara müqavimət göstərmək, kiçik və ortabab futbol klublarının maraqlarını müxtəlif səviyyələrdə təmsil etməkdir".

E.Usub bildirib ki, UEFA yarışlarından əldə edilən ümumi gəlirdən Çempionlar Liqası, Avropa Liqası və Konfrans Liqasında iştirak etməyən klublara, o cümlədən Azərbaycan Premyer Liqası təmsilçilərinə də "həmrəylik ödənişi" formasında pay düşür:



"2021-2024-cü illərdə ümumi gəlirlər hər il təxminən 3,5 milyard avro olub və bunun cəmi 3 faizi, yəni illik 140 milyon avrosu UEFA-nın bayrağı altında keçirilən yarışlarda iştirak etməyən klublar arasında bölüşdürülüb. Məhz UEC-in apardığı iş nəticəsində növbəti 3 il ərzində bu nisbət 3 faizdən 7 faizə qədər artırılıb, hər il təxminən 308 milyon avronun bölüşdürülməsi gözlənilir. Azərbaycanın kiçik və ortabab klubları da bundan bəhrələnəcək".

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4261**
**Sifariş: 1541**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli